

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Olimpiya Oyunlarındakı Qələbə sevinci



3

SƏS

№ 145 (7070)

14 avqust 2024-cü il.
Qiyməti 60 qəpik

# Kəlbəcərə Böyük Qayıdış



2

**Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasətinin nəticəsidir ki, illərdir yurd-yuva həsrəti ilə yaşayan insanlar öz yurd yerlərinə dönürlər**

# Qaydalar və qadağalar ölkəsi - İRAN

**Pezeşkian nazirləri seçir, əvəzində islahatçıların dəstəyini itirir**



8

## Ailə münaqişələri: baltaladığımız gələcək



11

## Almaniya müharibəyə hazırlaşır





13

## Sevinc Osmanqızı Əli Kərimlinin axırına çıxmağı planlaşdırır



14

## Marsda qayaların içində maye su anbarı tapıldı



16

## Bahalaşma davam edir: səbəblər və həll yolları nədir?



13

# Kəlbəcərə Böyük Qayıdış

**Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasətinin nəticəsidir ki, illərdir yurd-yuva həsrəti ilə yaşayan insanlar öz yurd yerlərinə dönürlər**

Azərbaycan və Ermənistan arasında atəşkəs elan olunsa da, ölkəmizin xoşməramlı səylərinə, Ermənistanı diplomatik vasitələrlə işğalçılıq siyasətindən çəkindirməyə yönələn addımlara baxmayaraq, münaqişə hələ də həll olunmamış qalırdı. Qarabağ müharibəsi vaxtı cəbhə bölgəsində atəşkəsi nəzərdə tutan sənəd olan "Bişkek protokolu" 1994-cü ilin mayında imzalanmışdır. 26 il atəşkəs rejimində Azərbaycan bu münaqişənin sülh yolu ilə həllinə nail ola bilmədi. Bu müddət ərzində, cəbhədə dəfələrlə atəşkəs rejimi pozuldu. İşğalçı Ermənistan beynəlxalq hüququ kobudcasına tapdalayaraq, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət verməyib. BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən dörd müvafiq qətnamə qəbul etsə də beynəlxalq hüququn normalarını kobud şəkildə pozub. Bir çox beynəlxalq təşkilatlar, dünya ölkələri Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsini pisləyiblər və işğalçılıq siyasətindən əl çəkməyə çağırıblar. ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistanın azğınlığına laqeydlik göstərmişdirlər. Azərbaycanın haqlı tələblərinə məhəl qoyulmayıb. Azərbaycan Prezidenti 30 il ərzində torpaqlarımızın işğal altında olmasının böyük ədalətsizlik olduğunu və beynəlxalq hüququn bütün norma və prinsiplərinə zidd olduğunu dəfələrlə çıxışlarında, verdiyi müsahibələrdə bildirib. "Təəssüflər olsun ki, 30 il ərzində Minsk qrupu bu məsələnin çözülməsinə yaxınlaşmadı, fəaliyyəti oldu, amma nəticə etibarilə nəticə olmadı. Nəticə sıfıra bərabər idi və Azərbaycan xalqının ümidləri tam tükənmişdi. Çünki 30 il ərzində aparılan danışıqlar nəticəsiz qalırdısa, deməli, bu məsələnin dondurulması prosesi gedirdi. Təbii ki, biz heç zaman bu vəziyyətlə barışmaq fikrində deyildik. Mən son illər ərzində dəfələrlə demişdim ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarını işğalçılardan azad edəcək və belə də oldu", - deyə Prezident bildirmişdir. 44 günlük Vətən müharibəsi dövründə Prezident İlham Əliyev dünyanın 30-dan artıq aparıcı KİV-lərinə, o cümlədən tanınmış televiziya kanallarına müsahibələr verərək, Azərbaycanın haqlı mövqeyini, münaqişənin yaranma səbəblərini, Ermənistanın işğalçılıq siyasətini bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırmış oldu.








## "AZƏRBAYCAN QURTULUŞ SAVAŞINA BAŞLAYARAQ ÖZ TARİXİ TORPAQLARINI İŞĞALÇILARDAN AZAD ETDİ"

Əlbəttə ki, Azərbaycan Prezidentinin vurğuladığı kimi, "Azərbaycan Qurtuluş savaşına başlayaraq öz tarixi torpaqlarını işğalçılardan azad etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları bizim torpaqlarımızdan qovdu və öz ərazi bütövlüyünü, torpaq bütövlüyünü bərpa etdi".

Azərbaycan müharibənin ilk günlərində döyüş meydanında öz gücünü göstərdi və elə bir müharibə apardı ki, bütün dünya bunu izlədi. Vətən müharibəsində onlara Azərbaycan yetərincə dərs verdi və 44 gün ərzində işğalçıları öz torpaqlarından qovdu. Tarixi ədalət bərpa olundu. 2020-i ilin noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladıqları üçtərəfli Bəyanatla düşmən təslim oldu. Artıq işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsidir ki, illərdir yurd-yuva həsrəti ilə yaşayan insanlar öz yaşadıqları yurd yerlərinə dönürlər.

## "DƏMİR YUMRUĞ"UN GÜCÜ

Dəmir yumruğun gücünə imzalanan bəyanata əsasən, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Üçtərəfli bəyanata əsasən, 15 noyabr tarixində Kəlbəcərin təhvil verilməsi qərarlaşdırılsa da Ermənistan tərəfinin Rusiya vasitəsilə Azərbaycandan xahişi ilə bu müddət 25 noyabr tarixinə qədər uzadıldı və Kəlbəcər işğaldan azad olundu. Dövlət başçısı çıxışlarının birində bildirdiyi kimi, "Rusiya rəhbərliyi bizə müraciət etmişdir ki, onlara əlavə on gün vaxt verin, onlar buradan öz şələ-şüləlişini yığışdıra bilmirlər. Onlara vaxt verin ki, çıxsınlar. Biz yenə də humanistlik göstərdik. Yenə də vaxt verdik noyabrın 25-nə qədər. Amma onlar bu müddət ərzində nə etdilər?! Onlara məxsus olmayan, qanunsuz məskunlaşdıqları evləri yandırdılar, dağıtdılar. İndi yol boyunca o evlər görünür. Ağacları kəsdilər, ağacları yandırdılar. Bax, erməni vəhşiliyi budur. Zaman dəyişir, erməni faşizmi dəyişmir və dəyişməyəcək. Heç kim bunu unutmamalıdır".

1993-cü ildə erməni silahlı dəstələri tərəfindən işğal edilmiş Kəlbəcər 27 illik işğal altında qalsa da yenidən öz sakinlərini qoynuna alır. Kəlbəcər 1993-cü aprelin 2-də erməni quldurları tərəfindən işğal olunmuşdur. İşğal nəticəsində Kəlbəcərdə 511 nəfər şəhid olmuş, 231 nəfər itkin düşmüş, 100-lərlə adam şikəst olmuşdur. 130 yaşayış məntəqəsi, 500-dən artıq sənaye, tikinti, məişət, ticarət obyekti, 172 mədəniyyət obyekti, 96 ümumtəhsil məktəbi, 76 səhiyyə obyekti, 1 muzey darmadağın edildi. 100 min baş qaramal, 500 min baş qoyun-quzu, 100-lərlə maşın, texnika, avadanlıq talan olunmuşdur.

## "ERMƏNİ FAŞİZMİNİN EYBƏCƏR SİFƏTİ DƏYİŞMİR"

Ermənilər Azərbaycan işğal altında olan bütün əraziləri kimi, Kəlbəcəri də dağıtmış, onun tarixi abidələrini darmadağın etmişdir. Kəlbəcər rayonu böyük tarixi keçmişi, zəngin mədəniyyəti, qədim tarixi abidələri ilə seçilir. Dağıdılmış mədəni abidələr Alban məbədi, Alban kilsəsi, Lök qalası, Uluxan qalası, Alban kilsəsi, Qalaboynu qalası, Comərd qalası, Kəlbəcər şəhərində məscid, Başlıbel kəndində məscid, Otaqlı kəndində məscid, Kəlbəcər Tarix-diyarşünaslıq muzeyi, Aşıq Şəmşir adına mədəniyyət evi, Söyüdlü yaylağında Seyid Əsədullanın ziyarətgahı və digər abidələr 27 illik işğaldan azad oldu. Erməni vandalları buranı işğal etdikdən sonra tarixi abidələrin əksəriyyətini məhv ediblər. Dövlət başçısının vurğuladığı kimi, "Şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Vəhşi ermənilər başqa şəhər və kəndlərimiz kimi, Kəlbəcəri də dağıdıblar. Bütün binalar dağıdılıb. Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb, sökdülər. Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə biz bunları buradan qovanda da gedə-getdə ağacları kəsib, yandırıb, binaları dağıdıblar".

Kəlbəcər rayonu faydalı qazıntılarla, o cümlədən qızıl, xrom yataqları ilə zəngin olan diyardır. Sənaye əhəmiyyəti olan civə ehtiyatları Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataqda yerləşir. Söyüdlü - Zod qızıl mədəni tarixə uzun əsrlərdir məlumdur. Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları 27 il Ermənistan respublikası tərəfindən talan edildi. İşğal edilmiş ərazilərdə 155 adda müxtəlif növ faydalı qazıntı yataqları mövcud olub. Ermənilər bu ehtiyatlardan daha çox qızılı talan ediblər. Zod mədəninin qanunsuz istismarı nəticəsində Ermənistan büdcəsi təkcə 2019-cu ildə 52 milyon ABŞ dolları qazanıb. Bir faktı da diqqətə çəkək ki, 1997-ci ildə Ermənistan Sənaye və Ticarət Nazirliyi Söyüdlü (Zod) yatağinin istismari üçün Kanadanın "First Dynasty Mines" (FDM) şirkəti ilə müqavilə imzalayıb. Yalnız 2003-2004-cü illərdə burada 4,5 ton təmiz qızıl istehsal edilib.

## NÖVBƏTİ 20 İL ƏRZİNDƏ KƏLBƏCƏR ŞƏHƏRİNİN ƏHALİSİNİN SAYI 17 MİN NƏFƏRƏ ÇATACAQ

Bu gün işğaldan azad olunan ərazilərimiz kimi, Kəlbəcərdə də quruculuq-abadlıq işlərinə start verilib. Artıq işğaldan azad edilən rayonda irimiqyaslı layihələr həyata keçirilir. Kəlbəcər şəhərinin Baş planı əsasında işlər reallaşır. Kəlbəcər şəhərinin Baş planının hazırlanması zamanı onun özünəməxsus simasının formalaşdırılması üçün ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq müxtəlif memarlıq ənənələri də araşdırılıb, tətbiq ediləcək nümunələrlə bağlı təkliflər verilib. Baş planın konseptual əsasını sağlamlıq və dağ turizmi imkanlarının inkişafı, təbiətlə vəhdətdə yaşıl şəhər mühitinin yaradılması təşkil edir. Şəhərin mərkəzi hissəsində çoxmənzilli binalar, ətraflara doğru isə həyətyanı sahəsi olan fərdi evlər inşa olunacaq. Növbəti 20 il ərzində Kəlbəcər şəhərinin ərazisinin 237 hektara, əhalisinin sayının isə 17 min nəfərə çatacağı proqnozlaşdırılır.

Tədbirlər Planına əsasən, yerli sakinlərin geri qayıdışının təmin edilməsi fəaliyyət istiqaməti üzrə Kəlbəcər rayonunda 2026-cı ilədək 3500 ev - 2000 fərdi yaşayış evi və 1500 mənzil tikilərək istismara veriləcək. 2024-cü ildə 1115, 2025-ci ildə 725, 2026-cı ildə 1610 evin tikintisi baş tutacaq. 2026-cı ilə qədər 1 şəhər, 1 qəsəbə, 13 kənd olmaqla 15 yaşayış məntəqəsinin layihələndirmə işlərinə başlanılması nəzərdə tutulub. Artıq Prezident İlham Əliyev tərəfindən Kəlbəcər şəhərində inşa olunacaq İşğal və Zəfər muzeyləri kompleksinin təməli qoyulub. Kompleksin bir hissəsi işğal tarixinə, digəri isə Zəfərə həsr olunacaq. Bu layihə ilə həm də təbiətə ehtiram nümayiş olunacaq. Kəlbəcərdə yeni yaradılmış komando qüvvələrinin hərbi hissəsinin açılışı ölkəmizin müdafiə potensialının göstəricisidir.

Böyük Qayıdış strategiyası nəticəsində 30 illik həsrətdən sonra öz dədə-baba yurdlarından uzaq düşmüş insanlar müasir məkanlarda həyat sürəcəklər.

***Zümrüd BAYRAMOVA***

# Olimpiya Oyunlarındakı Qələbə sevinci

Azərbaycanda bütün sahələrə olduğu kimi, idmanın inkişafına da ayrılan diqqətin nəticəsidir ki, ölkəmizin idmançıları beynəlxalq idman yarışlarında, olimpiadalarda dövlət bayrağını yüksəkliklərdə dalğalandırırlar. Belə ki, son illərdə idmançılarımız bir çox olimpiya oyunlarında yüksək nəticələr əldə etmişdilər. Olimpiya oyunlarına nəzər salsaq görərik ki, Azərbaycan bu yarışlarda böyük uğurlar qazanıb. Xatırlatmaq yerinə düşər ki, 1996-cı ildə Atlanta Olimpiya Oyunlarında 23 idmançı ilə təmsil olunan Azərbaycan komandası 197 ölkə arasında 61-ci yeri tutub. Sidneydə XXVII Yay Olimpiya Oyunlarında Azərbaycan müstəqil dövlət kimi ikinci dəfə olimpiadada iştirak edərək iki qızıl və bir bürünc medalla iştirakçı ölkələr arasında 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri qazanıb. Afinada XXVIII Yay Olimpiya Oyunlarında Azərbaycan milli komandası bu möhtəşəm yarışdan vətənə 1 qızıl, 4 bürünc medalla qayıdıb. Bu siyahını artırmaq mümkündür. XXIX Yay Olimpiya Oyunları, XXX Yay Olimpiya Oyunları və s. Hər birində Azərbaycan idmançılarının böyük qələbəsi, tarixi nailiyyəti var.













## PARİS YAY OLİMPİYA OYUNLARINDA 2 QIZIL, 2 GÜMÜŞ VƏ 3 BÜRÜNC MEDAL

Bu günlərdə "Paris-2024" Yay Olimpiya Oyunlarında idmançılarımız növbəti uğurlara imza atıblar. "Paris-2024" Yay Olimpiya Oyunlarında 15 idman növü üzrə 48 idmançı ilə təmsil olunan Azərbaycan 7 medal qazanıb. Azərbaycan komandasının heyətində cüdoçular Hidayət Heydərov (73 kiloqram) və Zelim Kotsoyev (100 kiloqram) Olimpiya çempionu olublar, taekvondoçu Qaşım Maqomedov (58 kiloqram) və boksçu Alfonso Dominqes (92 kiloqram) gümüş, yunan-Roma güləşçisi Həsrət Cəfərov (67 kiloqram), sərbəst güləşçilər Maqomedxan Maqomedov (97 kiloqram) və Giorgi Meşvildişvili (125 kiloqram) isə bürünc medala sahib çıxıblar. Ölkəmiz medal sıralamasında Xorvatiya ilə birlikdə 30-31-ci yerləri bölüşdürüb. Ümumilikdə Azərbaycan Paris Yay Olimpiya Oyunlarını 2 qızıl, 2 gümüş və 3 bürünc medalla başa vurdu.

## ICESCO ÜZV DÖVLƏTLƏRİN İDMANÇILARININ TARİXİ NAİLİYYƏTLƏRİNİ TƏQDİR EDİR

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) Paris Olimpiadasında öz dövlət bayraqlarını qürurla qaldıran İslam dünyasının medalçılarına ürəkdən təbriklərini çatdırmaqdan məmnun olduğunu bildirib. Təşkilatın bəyanatında bildirilir: "ICESCO üzv dövlətlərin idmançılarının tarixi nailiyyətlərini təqdir edir, onların müxtəlif idman növləri üzrə çoxsaylı dünya rekordlarını alqışlayır və bu qlobal miqyasda tanınan idman tədbirində çətinliklərin öhdəsindən gəlməkdə göstərdikləri əzmkarlıq və qətiyyətlə fəxr edir. Təşkilat, həmçinin İslam dünyasının sağlam, firavan və möhkəm cəmiyyətlərin yetişdirilməsində rolunu vurğulayaraq, idmanın təşviqində göstərilən səyləri yüksək qiymətləndirir". Təşkilat vurğulayır ki, ICESCO bu münasibətlə idmandan sülh quruculuğu, birgəyaşayış və mədəniyyətlərarası dialoq dəyərlərinin təşviqi üçün güclü vasitə kimi istifadə edilməsinə dair strateji baxışını bir daha təsdiqləyir. Təşkilat həyatın yaxşılaşdırılması üçün idmanın gücündən istifadə edən müxtəlif təşəbbüslərin, proqramların və layihələrin həyata keçirilməsində müvafiq orqanlarla əməkdaşlıq vasitəsilə, xüsusilə də gənc nəsillər arasında idman iştirakçılığını artırmaq üçün üzv dövlətlərinin səylərini dəstəkləməyə davam edir.

ICESCO bəyan edib ki, təşkilat beynəlxalq ictimaiyyəti ekstremist ideologiyalara və zorakılıq meyillərinə qarşı çıxmaq, humanitar və sivilizasiya dəyərlərini təbliğ etmək üçün bu cür qlobal idman tədbirlərinin təqdim etdiyi fürsətdən istifadə etməyə çağırır. Yumşaq gücün bir forması olan idman, həmçinin müxtəlif cəmiyyətlərdən və mədəniyyətlərdən olan fərdlər arasında birgəyaşayış və tolerantlığın təşviqində mühüm rol oynayır.

## VƏTƏNƏ QƏLƏBƏ SORAĞI İLƏ

Azərbaycan idmançıları hər bir yarışdan qələbə sorağı ilə vətənə dönürlər. Eləcə də, ölkəmizdə keçirilən yarışlarda Azərbaycan bayrağını yüksəkliklərə qaldırırlar, dövlət himni səsləndirilir. Azərbaycanda çoxsaylı idman yarışları, o cümlədən, Avropa və dünya çempionatları, Olimpiya və qeyri-olimpiya idman növləri üzrə çempionatlar keçirilir. Paytaxtımızda təşkil edilən "Bakı-2015" ilk Avropa Oyunlarında da Azərbaycan bu oyunların standartlarını müəyyənləşdirməklə yanaşı, atletlərimiz 21-i qızıl, 15-i gümüş, 20-si bürünc olmaqla 56 medal qazanaraq 2-ci yeri tutdular. IV İslam Həmrəyliyi Oyunlarında isə idmançılarımız elə bir möhtəşəm uğura imza atdılar ki, "Bakı-2017"nin ən güclüləri oldular. Bütün bunlar, ölkəmizdə idmana ayrılan diqqət və yaradılan şəraitdir. Respublikamızda idmanın qısa müddətdə yüksək inkişaf səviyyəsinə çatması, idmançılarımızın beynəlxalq arenada böyük uğurlar qazanması əlbəttə ki, Cənab İlham Əliyevin həm dövlət başçısı, həm də Milli Olimpiya Komitəsinin rəhbəri kimi bu sahəyə göstərdiyi diqqətin təzahürüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Tramp hələ də qalib gələ bilər

**_ABŞ-da seçki yarışı daha mürəkkəbləşib, lakin Harris-Valz tandemi əhəmiyyətli zəif tərəflərə malikdir. Bunlardan biri də Kamalanın uğursuz Bayden administrasiyasındakı işidir. İnsanlar bunu xatırlayırlar - və prezidentliyə namizədin keçmişini ağartmaq cəhdləri yalnız özünə qarşı işləyir. Demokratlar nəhayət ki, hökumətin yüksək vəzifələrinə namizədlər tandemini rəsmən təsdiqləyiblər. Bu, seçiciləri prezident Co Baydenin yaşı və 86 yaşına qədər xidmət etmək qabiliyyəti ilə bağlı artan şübhələrə məhəl qoymamağa inandırmaq üçün son səylər üzərində real irəliləyişdir._**




Respublikaçıların vitse-prezident Kamala Harrisin prezidentlik kampaniyasında Pensilvaniya qubernatoru Coş Şapironu yox, Minnesota qubernatoru Tim Uolzunu öz yerin' namizəd seçməsinə sevinməkdə haqlı olub-olmadığını zaman göstərəcək. Ancaq federal kampaniyanın maliyyə qanununun və demokratların irqi siyasətinin izaholunmaz təfərrüatları olmasaydı, həm Bayden, həm də Harrisi Rust Belt əyalətlərindən iki qubernator - və ya ən azı bir nisbi mötədil demokrat əvəz edə bilər.

Bunun əvəzinə, Demokratlar 1972-ci ildə keçirilən seçkilərdə böyük qələbə qazanan Riçard Niksonun seçilməsindən sonra ilk dəfə olaraq, respublikaçılar Minnesotanı mavi düşərgədən məğlub etmək ümidinə sahib olsalar belə, mahiyyətcə mavi əyalət namizədini irəli sürmək niyyətindədirlər. 1984-cü ildə yenidən seçki kampaniyası zamanı Ronald Reyqanın köməkçiləri onu 50 ştatda qələbə qazanmağa hazırladıqları barədə hekayələr var.

Harris və Vals Niksonun Minnesotada qələbəsindən sonra Demokratların namizədliyini irəli sürdüyü bəlkə də ən solçu tandemdir. Amma bu o demək deyil ki, keçmiş prezident Donald Tramp da oxşar qələbəyə zəmanət verir. İndi elektorat daha çox qütbləşib və Barak Obama öz nümunəsi ilə sübut etdi ki, düzgün namizədlə Corc Makqovernin koalisiyasının hansısa versiyası asanlıqla qalib gələ bilər. Bura milyonlarla insanın Trampdan başqa hər kəsə səs verəcəyinidə əlavə edin.

Ancaq missiya hələ də mümkündür. Harris qeyri-populyar bir administrasiya ilə əlaqələndirilir, onun vəzifədəki rekordu əksər seçicilər tərəfindən uğursuzluq kimi qəbul edilir. Əbəs yerə deyil ki, hazırkı vitse-prezidentin kampaniyasının çox hissəsini seçicilər birbaşa Kaliforniya baş prokuroru kürsüsündən prezidentliyə namizəd kimi qəbul edir. Bir çox cəhətdən Harrisin fikirləri Baydendən daha solçudur. O, ictimai çıxışlarda və kamera qarşısında onları dəstəkləyir, baxmayaraq ki, ətrafındakı anonim mənbələr əksər hallarda sonradan onun sözlərini rədd edirlər. Harrisin əlverişsiz proqressivizm rekordunu təmizləmək cəhdinin özü respublikaçıların hücumları üçün münbit zəmindir. Aşkar yalanlar qərarsız seçiciləri səsini əlindən ala bilər. Çox vaxt öz fikirlərini dəyişən insanlar səmimiyyətlərinə şübhə ilə yanaşırlar. Con Kerri - xatırlayırsınız ki, hazırda Trampın strateqi olan Kris LaCivita 2004-cü ildə Swift Boat Veterans for Truth demokrat D.Kerrinin namizədliyinə qarşı çıxan təşkilat üçün çalışıb.

Ancaq Harris və Walz gözəl görünürlər. "Şəkil" baxımından onlar demokratların mesajını çatdırmaqda 81 yaşlı Baydendən qat-qat üstündürlər. Onlar Trampdan daha yeni, həm də daha gəncdirlər - hətta Valsda olsa belə, ilk baxışdan hər şeyin tam əksinə olduğu görünür. Və onlar respublikaçılardan qat-qat intizamlıdırlar, baxmayaraq ki, onların tərəfini tutan medianı nəzərincə, bu onlardan tələb olunmur. J.D.Vans effektiv polemikçi olmaq ilə cəlbedici siyasi namizəd olmaq arasındakı fərqi tez öyrənir, lakin onun əlində çox az vaxt var.

Harris və Valzın döyülə bilməsi onların mütləq uduzacaqları demək deyil. Al Qor və Kerrinin Corc Buşa və ya Romninin Obamaya qarşı hekayələrini misal çəkmək kifayətdir. Baydenin yaşı onun yenidən seçilmək istəməsini qeyri-mümkün edib. Yeni Demokratik tandemlə respublikaçılar namizədlər arasında fərqin nə qədər yaxın olacağına artıq əmin deyillər. Strateji sual da var: Tramp və Vens "solçu" Demokratik tandemə qarşı ənənəvi mühafizəkar kampaniya aparsınlarmı, yoxsa daha çox populist mövqe tutsunlar, hətta bu halda media-da müdafiəçilərini de-fakto itirəcəklər. Lakin Trampın demək olar ki, bir ildir irəli sürdüyü əsas arqument hələ də qüvvədədir və səsvermənin keçirildiyi vaxt ölkədə və dünyada vəziyyətin pisləşməsi üçün hər cür səbəb var. Trampın yol boyu dağılan namizədlə rəqabət aparmaq üçün kifayət qədər intizamı var idi. Demək olar ki, onun qədər yaxşı olan rəqibini məğlub etmək üçün fikirlərini kifayət qədər irəli apara biləcəkmi?

Qərb mediası Kamala Harrisin vitse-prezidentliyə namizədi Tim Valzı "cazibədar ata" kimi təqdim edir, onun hərbi keçmişini və Minnesota qubernatoru kimi nailiyyətlərini tərifləyir. Əslində, Walz ilə hər şey sadə deyil. Məqalə müəllifi onun əslində necə insan olduğunu bildirib. Avropa mediası Tim Valzı "dəbdə olan" mütərəqqi meylli olsa da, tipik mötədil kimi təqdim etmək tərzini mənimsəyib, lakin Demokratlar Partiyasından ABŞ-ın yeni vitse-prezidentliyə namizədinin tərcümeyi-halında qaranlıq tərəflər də var.

Minnesota əsilli və American Moment hərəkatının qurucusu Nik Solheim Qubernator Valzı "Minnesotalılar üçün fəlakət" adlandırdı. Məqaləsində o, fikrini genişləndirdi: "Reallıq budur ki, Kamala Harris və Tim Uolz müasir Amerika tarixində ən radikal Demokrat namizəd tandemidir". Atlantikanın Avropa tərəfində Guardian Walzı keçmiş coğrafiya müəllimi və 24 illik xidməti olan Milli Mühafizəçi, həmçinin "cazibədar Orta Qərb atası" kimi təqdim edir. Məqalədə prezidentliyə namizəd Kamala Harrisin "orta səviyyəli ailələr üçün mübarizə əzmi"ndən heyran qaldığı qeyd edilib. Və BBC, Uolzun Minnesota qubernatoru kimi iki müddətini tərifləyir və onları "əyalət qanunvericiliyi üçün ən məhsuldar dövrlərdən biri" adlandırır.

BBC "prolific" sözünü "proqressiv" ilə əvəz etməlidir. Valzın qubernatorluğu dövründə, Minnesota:

- Bütün ölkədə abortla bağlı ən liberal qanunlardan birini tətbiq etdi və uşaq doğulana qədər tələb əsasında abort etməyə icazə verdi. 2 fevral 2023-cü ildə Walz tərəfindən imzalanan qanun, həyat qabiliyyətli dölün abortunun qadağan edilməsi və xitamların xüsusi təlim keçmiş həkim tərəfindən həyata keçirilməsi tələbi də daxil olmaqla, əvvəlki məhdudiyyətləri ləğv etdi.

- Hormonal "müalicə" və ya cinsiyyət dəyişdirmə əməliyyatı axtaran uşaqlar üçün "tibbi turizmi" təşviq edən "trans cənnətə" çevrildi. Sözdə Transgender Sanctuary Aktı, cinsiyyətinin dəyişdirilməsi prosedurları üçün ştata gələn uşaqlar üçün "hüquqi müdafiə" təmin edir və Minnesota məhkəmələrini və ya məmurları digər ştatların ekstradisiya və ya ölkədən çıxarma əmrlərini icra etməkdən çəkindirir.

- Qanunverici Sandra Feist Mühafizəkar həmkarlarına "aybaşı görən tələbələrin hamısının qız olmadığını" izah edən qanun layihəsini təqdim etdikdən sonra oğlan və qızlar üçün məktəb tualetlərində dövlət tərəfindən maliyyələşdirilən yastıqlar və tamponlarla təmin etməyə başladı. (Tədbir Walz-a sosial mediada "Tampon Tim" ləqəbini qazandırdı.)

- Bütün ölkədə koronavirusla mübarizə üçün ən sərt tədbirləri tətbiq etdi, kilsələri, məktəbləri və müəssisələri bağladı və ştatda məcburi maska rejimi tətbiq etdi.

Nəinki bu, Walz, sonradan Minnesotalıların karantin pozuntuları ilə bağlı hüquq-mühafizə orqanlarına şikayət edə biləcəyi, kilsə yığıncaqları və basketbol oyunları kimi iyrənc cinayətlərlə bağlı minlərlə şikayətə səbəb olan "snitch qaynar xətti" adlandırılan bir şeyin işə salınmasını əmr etdi.

- Walz tibb müəssisələri dəri rənginə əsaslanan koronavirus üçün monoklonal antikor müalicələrinə çıxışı təmin etdi, rəngi ağ olan xəstələrə üstünlük verdi və ciddi tibbi risk faktorlarını nəzərə almadı. Sosial mediada insanlar Walz-un bu şəkildə "ağ imtiyazını" ödəməyə çalışıb-çalışmadığı ilə maraqlandılar.

- Səhv idarəçilik və nəzarət nəticəsində, "Gələcəyin maliyyələşdirilməsi" koronavirus proqramı pandemiyanın ölkənin ən böyük fırıldaqçılıq sxemində hökumət vəsaitlərinin icazəsiz ödənişləri ilə 250 milyon ABŞ dolları ilə nəticələndi.

- Walz qeyri-qanuni mühacirlərə sürücülük vəsiqələri almağa icazə verdi və onlara pulsuz tibbi xidmət və pulsuz kollec təhsili verilməsini müdafiə etdi.

- Bir neçə gün əvvəl Walz, Donald Trampın sərhəd divarını tənqid etdiyi köhnə CNN müsahibəsinin bir hissəsini yenidən yayımladı: "Mənə bunun nə qədər hündür olacağını deyin. Əgər 25 fut olarsa, o zaman 30 futluq nərdivanlar istehsal edəcək fabrik tikməyə sərmayə qoyacağam".

- Minnesota o qədər çox qaçqın və miqrant qəbul edib ki, Somalidən kənarda ən böyük Somali diasporası Minneapolisdə - "Kiçik Moqadişu" adlanan yerdə formalaşıb. Miqrant icmasında məşğulluq nisbəti 30-40% arasında dəyişir, yəni əksəriyyət müavinətlə yaşayır. Minnesota həmçinin "İslam Dövləti"nin amerikalı muzdlularının 25%-ni "təmin edib".

"O, qubernator olarkən, Walz qaçqınların köçürülməsi üzərində dövlət nəzarətini genişləndirən Tramp qanununa qarşı çıxdı: "Minnesotada hələ də çox yer var" və əlavə etdi ki, "qaçqınlar icmalarımızı bir yerdə saxlayır."

Bu "breketlər" haqqında bir az daha:

- Onun qubernatorluğu dövründə qətllərin sayı 71%, avtomobil oğurluğu isə 548% artıb.

- Walz 2020-ci ildə Corc Floydun ölümü ilə bağlı iğtişaşlar zamanı transferi yavaşlatmaqla geniş dağıntıların qarşısını ala bilmədi.

**_V.SALAH_**

SEÇKİLƏR

# "Ermənistanın böyük səhvləri var"



Mövqe

"Ermənistanın sülhdən qaçmasının birincisi onun özünün yarıtmaz siyasət yeritməsi ilə bağlıdır. İkincisi də 3-cü dövlətlərin bizim bölgə proseslərinə müdaxilələrinin nəticəsidir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.Onun sözlərinə görə, Ermənistan zəiflik, acizlik göstərir: "Ona görə də başqa dövlətlər ona həm öz istəklərini, fikirlərini təlqin edirlər, digər tərəfdən vadar edirlər ki, Ermənistan öz bacarığını nümayiş etdirməsin, əksinə buyruqlarla hərəkət etsin, oturub-dursun. Bu işlərin hamısı əlbəttə ki Ermənistan üçün heç vaxt yüngüllük, rifah, sabitlik gətirməyəcək. Çünki bir halda ki ölkənin rəhbərliyi var, dövlətin rəhbərliyi var, hökumətin başçısı var, onlar gərək üzərlərinə düşən məsuliyyəti yerinə yetirsinlər, digər tərəfdən gərək antiböhran proqramını həyata keçirsinlər. Bütün bu proseslərin hamısının başında əlbəttə ki sülh işidir. Çünki Azərbaycan sülh gündəliyini tərtib edib, onlara təkliflərini verib, prinsipləri təqdim edib. Ancaq Ermənistan yenə də müdaxilələr nəticəsində konkret olaraq nə hə nə yox demir, sadəcə prosesdən yayınır və burada onda savotaj elementlərini biz görürük.Bəli,indi ABŞ, Fransa, Yunanıstan, Hindistan və s. intensiv şəkildə Ermənistanın daxili işlərinə qatılırlar və çalışırlar Ermənistanı sülh yolundan uzaqlaşdırsınlar. Onların da qayəsi ondan ibarətdir ki, birincisi burada sabitlik bərqərar olmasın, digər tərəfdən də eskalasiyanı bunlar gündəmə gətirsinlər. Əlbəttə, Ermənistan gərək bu işlərin hamısında öz ixtiyarını əldən verməyəydi. Çünki heç vaxt kənardan gələnlər, kənar qüvvələr Azərbaycanın ya Ermənistanın fikrini etməyəcək, onlara yüngüllük gətirmək niyyəti ilə hərəkət etməyəcək. Onların istəyi ondan ibarətdir ki, əksinə özlərinin müdaxilələri ilə maraqlarını yerləşdirsinlər, bölgədə hakim kəsilsinlər, özlərinin fiziki cəhətdən mövcudluqlarını burada təmin etsinlər. Ona görə də mən hesab edirəm ki, Ermənistanın burada böyük günahı var, böyük səhvləri var və əvvəl-axır o səhvlərin də ucbatından Ermənistan özü o əziyyətləri yaşayacaq. Azərbaycan isə bu proseslərin hamısında əlbəttə ki nəzarətini proseslərdən çəkmir. Biz əvvəlki tək bütün işlərin hamısını üzərimizə düşən məsuliyyəti dərk edərək görürük, işlərin hamısını həyata keçiririk. Ermənistan üçün ən yaxşı variant Azərbaycanın sözünü dinləyib onun dediklərinə əməl etmək idi. Ancaq təəssüf ki onlarda bunu etmək üçün müdriklik çatmır, ağılları da kəsmir və digər tərəfdən elə bilirlər ki, Amerika, Fransa uzaqdan gəlib bunlara burada güzəran yaradacaq. Xeyr, heç vaxt yaratmayacaq və onlar ermənilərin cibindən xərcləyərək elə bu prosesi də davam etdirəcəklər".





*Ayşən Vəli*

# Türkiyəli ekspert: "Ermənistan konstitusiyasının mətni və delimitasiya prosesinin natamam olması Bakı ilə İrəvan arasında sülhü ləngidir"

Ermənistan konstitusiyasının hazırkı mətni və dövlət sərhədinin delimitasiya prosesinin başa çatmaması Azərbaycan ilə Ermənistan arasında sülhə nail olunmasının qarşısında duran əsas əngəllər sırasında yer alır. AZƏRTAC xəbər verir ki, bu fikri Ankara Avrasiya Araşdırmaları Mərkəzinin (AVİM) analitiki Tuğçe Tecimer Cənubi Qafqazda sürətli və uzunmüddətli sülh perspektivlərini şərh edərkən bildirib.




Onun sözlərinə görə, Ermənistan konstitusiyasında Müstəqillik Bəyannaməsinə istinadla təsbit olunmuş Qarabağın Ermənistana birləşdirilməsi bəndi Azərbaycanın ərazi bütövlüyünə birbaşa təhdiddir. "Konstitusiya bütün digər normativ hüquqi aktların və ümumilikdə dövlət siyasətinin əsasını təşkil edən sənəddir. Ona görə də Azərbaycanın özünə qarşı ərazi iddiaları ehtimalını istisna etmək istəməsi təbiidir", - deyə Tecimer qeyd edib. Türkiyəli analitik Ermənistanın baş naziri Nikol Paşinyanın ölkə Konstitusiyasının yenilənməsi zərurəti ilə bağlı sözlərinə müxalifətin və kilsənin mənfi reaksiyasına diqqət çəkib.

Sülh prosesinin qarşısında duran başqa bir maneə - delimitasiya prosesinin natamam olması barədə danışan AVİM-in eksperti dəqiq sərhəd xəttinin yeni toqquşmaların qarşısını alacağını və regionda təhlükəsizliyi gücləndirəcəyini bildirib.

Tecimer erməni kilsəsinin Azərbaycanla razılaşmalara qarşı olduğunu da diqqətə çatdırıb. O vurğulayıb: "Kilsənin mövqeyi diaspor tərəfindən Ermənistan hakimiyyətinə qarşı yeni tənqid dalğası üçün təkan oldu. Bütün bunlar son nəticədə danışıqlar prosesini ləngidir".

Ekspert hesab edir ki, İrəvanla Bakı arasında sülhün əldə olunması bütün region üçün xüsusi əhəmiyyət kəsb etsə də, razılaşmaların qarşısında duran maneələrin hamısının tezliklə aradan qaldırılması ehtimalı azdır. "Amma bütün bunlara baxmayaraq, hər iki dövlətin beynəlxalq hüquq əsasında və regionun maraqlarını nəzərə alaraq danışıqları davam etdirməsi çox vacibdir", -deyə türkiyəli analitik qeyd edib.



# MÜSAHİBƏ: bəlkə bürokratik əngəl?

MƏTANƏT

***İşə qəbul ölkəmizdə imtahan vasitəsilə həyata keçirilir. Bu, çox təqdirəlayiqdir. Kimin savadı var, əziyyət çəkib oxuyub, tay-tuşu sosial şəbəkələrdə gecə səhərədək gəzəndə, boş-boş veyillənəndə kimin əlindən kitab düşməyibsə, təbii ki, onun üçün imtahan vermək də dərd deyil. İmtahanı verəcək, istədiyi sahədə işə düzələcək, yaxşı maaş alacaq, mənzil məsələsini həll edəcək, sonra ailə quracaq. Biriki ilə, necə deyərlər, yüz ilin evi olacaq.***

Olacaqmı, yeni? Buna bürokratik əngəllər icazə verəcəkmi? Dövlət başçısı tərəfindən ölkədə gənclərə göstərilən diqqət, onlar üçün yaradılan şərait qarşılığında əksər dövlət qurumlarında gənclər üçün yaradılan əngəlləri deyirəm. Onların işə düzəlməsinin yubadılmasını, müxtəlif vəzifələrə irəli çəkilməsinin əngəllənməsini, dövlət qurumlarında, idarə, müəssisə, təşkilatlarda vakant yerlərin aylarla boş saxlanmasını deyirəm. Test imtahanını ən yüksək nəticə ilə başa vurub ikinci-müsahibə mərhələsində bürokratik əngələ ilişən, gözləri yollarda qalan, aylarla cibində bir qəpik pulu olmayan gəncləri deyirəm. Aylar öncə verilən, lakin nəticəsi elan olmaq bilməyən imtahanları, gənclərin gənclik həvəsini gözündə qoyan nəticəsiz imtahanları deyirəm. Gənc qızların ailə qurmasını, gənc oğlanların evlənməsini, ailə-uşaq sahibi olmasını əngəlləyən müsahibə imtahanını deyirəm.

Və işə qəbul imtahanlarının məhz ikinci mərhələsi-müsahibə üzərində dayanıb, bunun mahiyyətindən bir qədər danışmaq da istəyirəm. Müsahibə, maraqlıdır, bu, bir qəzet janrıdır, müsahibəni də jurnalistlər alır. Necə oldu ki, ölkədə bütün imtahangötürənlər jurnalistə çevrildi? Gənc oğlan, qız birinci imtahanda bal toplayır. Məsələn, ən yüksək bal toplayan bir gəncin təbii ki, intellekt səviyyəsi də yüksək olacaq da. Ta burada müsahibə imtahanına ehtiyac varmı? Və yaxud da tutaq ki, müsahibə imtahanında gənclərin ümumi dünyagörüşü, işləyəcəyi sahə üzrə məlumatlı olub-olmaması yoxlanılır. Sözsüz ki, gənc bu barədə nəzəri bilik əldə edib, müsahibə verəcək. Axı bu gənc hələ heç bir yerdə işləməyib, onun iş haqqında hansı biliyi ola bilər ki? Maraqlı deyil? Məncə maraqlıdır. Qaldı gənclərin sağlamlıq vəziyyətinə və psixoloji durumuna baxışa, görəsən çoxsaylı xəstəxanaların işini imtahangötürənlər nə üçün məhz müsahibə vasitəsilə həyata keçirir?

Müsahibə imtahanına ehtiyac olmasa da, bu imtahanın acı nəticələri gənclərimizin həyat eşqini öldürsə də, imtahangötürənlər nəyi görmək istəyirlər, nəyi soruşmaq istəyirlər, soruşsunlar. Axır ki, gəncləri incitməsinlər, onların işə qəbuluna bu müsahibə mərhələsi əngəl yaratmasın. Nə üçün gənclər bu problemlərlə üzləşməlidir? Bu, diqqət salınmalı ciddi bir məsələdir. Hətta bu bürokratik əngəlləri yaradanlar ciddi cəzalandırılmalıdır. Gənclərin qarşılaşdıqları çətinliklərdən, imtahandan sonra gözləri yolda gözləmələrindən və onların layiq olduqları halda kənarda qalmalarından söhbət açmaqla, bu imtahanları həyata keçirən aid təşkilatlara və şəxslərə belə bir sual ünvanlayaq: nə üçün gəncliyi incidirsiniz? Nə üçün ən yüksək bal toplayan gənci işlə təmin etməyib onu narazı salırsınız? Nazirliklər, komitələr, baş idarələr, sözümüz sizədir. Siz vəzifəyə vətəndaşları incitmək üçün, yoxsa onların məsələlərini həll etmək üçün təyin edilmisiniz?

Nə üçün gənclərin arzularına qarşı çıxırsınız. Nə üçün onlar bir dəfə deyil, 2-3 dəfə imtahan verib, yüksək bal toplayır, lakin nəticə etibarilə işsiz qalır. Nəticə isə bu olur ki, ailə qura bilmir, ev ala bilmir. Məcburən fəhləlik edir, kafe-restoranlarda afisant işləyirlər. Bəli, tanıdığımız gənclər var, həm ali təhsili var, həm magistratura təhsili alıb, lakin hələ də aşağı vəzifələrdə çalışır və yaxud kafe-restoranlarda nazir balalarının qarşısına çay, çörək gətirir. Gözləyir ki, yenidən imtahan vaxtı gəlsin, bəlkə bu dəfə...

Sualımıza aid nazirlik, komitə, baş idarələr hansının ki, adı gənclərin işlə təminatı məsələsində daha tez-tez hallanır, yüksək bal toplayan gəncləri görməzdən gəlirlər, cavab verməlidir ki, nə üçün bu məsələ belədir?

İmtahanların müsahibə mərhələsini bilirsiniz necə adlandırırlar? Dayı mərhələsi. Axı hər kəsin vəzifədə dayısı ola bilmir. Hər kəs imtahanın ikinci mərhələsi üçün özünü tapşırda bilmir. Belə olan halda nə üçün dayısı olub, lakin başı boş olanlar vəzifəyə gəlməli, bizim layiqli gənclərimiz kənarda qalmalıdır?

Bəzi nazirlər, komitə sədrləri, baş idarə rəhbərləri söz veriblər ki, xalqın balaları ilə bu cür davranacaqlar? Söz veriblər ki, işə yalnız birbir ilə əlaqəli şəkildə, bir-birinin xahişi ilə adam seçəcək, vəzifələrə layiq olanın yerinə layiq olmayanı götürəcəklər...

Ümidvar olmaq istəyirik ki, bu məsələlər tezliklə həllini tapacaq. Hansı nazir, komitə, baş idarə rəhbəri bizim gənclərimizə qarşı bu mövqedə dayanıbsa, imtahandan sonra kiminsə zəngini gözləyirsə, həmin zənglərlə savadlı, layiqli gənclərimiz kənarda qalırsa, tezliklə cəzalandırılmasını arzu edirik.

Qeyd edim ki, redaksiyamıza yüksək bal toplayıb müsahibə mərhələsində bürokratik əngəllə qarşılaşan çoxsaylı gənc müraciət edir.

# Paltar ütüləmək xərçəng xəstəliyi yaradır?

**_Bilirik ki, qadınların çoxu paltar ütüləməyə nifrət edir. Türk Sinə Xəstəlikləri Mütəxəssisi Sevin Karalar ütü buxarına məruz qalmanın sağlamlıq problemlərinə səbəb olub-olmadığını açıqlayıb və ütüləmə zamanı diqqət yetirilməli olan məqamlara toxunub._**

Allergik astma xəstələrinin qapalı mühitdə yüksək rütubətlə təmasının astma tutmalarını stimullaşdıra biləcəyini ifadə edən Karalar, mütəxəssislər olaraq astma xəstələrinə ütüləmə kimi rütubətli mühit yaradan vəziyyətlərdən uzaq durmalarını tövsiyə etdiklərini deyib. O, xüsusilə son vaxtlar satışa çıxarılan intensiv buxarlı ütülərin riskli olduğuna diqqət çəkir. Yüksək rütubətli mühitlər astması olmayanlar üçün də problem yarada bilər.

SİA mövzu ilə bağlı araşdırma aparıb.

## Rütubətli mühit mikroorqanizmlərin çoxalmasını asanlaşdırır

Ütü hər istifadə edildikdə təmizlənməli və pəncərələr açıq saxlanmalıdır. Rütubətli mühitin mikroorqanizmlərin çoxalmasını asanlaşdırdığını və bu riskə görə qapalı mühitdə uzun müddət qalmamaq lazım olduğunu da əlavə edir.

Texnologiya məhsullarının yaydığı ionlaşdırıcı olmayan şüaların xərçəng riskini artırdığını ifadə edən professor Andaç Arqon isə, "Hər gün paltar ütüləmək, mobil telefonla 30 dəqiqədən çox danışmaq, işıq açıq yatmaq riski artırır" deyib.

Xərçəngə dəvət edən ətraf mühit faktorlarından qorunmağın mümkün olduğunu ifadə edən Andaç Arqon xərçəngdən qorunmağın yollarından danışıb:

## Hər gün paltar ütüləməyin

Demək olar ki, hər gün istifadə etdiyimiz ütülər, fenlər, çayniklər kimi kiçik məişət texnikası ciddi elektromaqnit şüaları yayır. Xüsusilə qadınlar vaxtlarının əhəmiyyətli bir hissəsini mətbəxdə keçirirlər. Qızdırıcıların ətrafınızdan 2 metr məsafədə olduğundan əmin olun. Gecə yatarkən otağınıza simsiz modem və mobil telefon qoymayın. Ütü də çox ciddi elektromaqnit dalğaları yayır. Hər gün paltar ütüləməyin, özünüzə ütüləmə günü təyin edin və uzatmadan prosesi tez tamamlamağa çalışın. Saç qurutma fenindən də uzun dəqiqələr istifadə etməyin. Mümkünsə, evinizin baza stansiyalarından və ya yüksək gərginlikli xətlərdən uzaq olduğundan əmin olun.

## Geyiminizi seçərkən diqqətli olun

Kimyəvi maddələrə məruz qaldığımız digər sahə isə bəzi geyim və oyuncaqlarda istifadə olunan boyalar və təhlükəli kimyəvi maddələrdir. Xüsusilə Uzaq Şərqdən gətirilən çox ucuz paltarlar, oyuncaqlar bu baxımdan risklidir. Geyimlərimizi seçərkən diqqətli olmalı və bu məhsullardan uzaq durmalıyıq. Nəzərə alın ki, qeyri-üzvi qidalarda kimyəvi maddələr çoxdur.

## Əlbəttə ki, ilk növbədə sağlamlıq

Təəssüf ki, hamımızın balkonumuz yoxdur və paltarları evin içərisində qurutmaq istəsək bəzən nəm qala bilir. Bu, bəzən bakteriyaların böyüməsinə və hətta göbələklərin yaranmasına səbəb ola bilər. Qazan ütüləri buxar çıxarmaq üçün 200 dərəcədən yuxarı temperatura çatır və bu buxar bakteriya, mikrob və göbələkləri öldürür.

## Ütü kimyəvi təmizləmədən daha təhlükəsizdir?

Kimyəvi təmizlməyə verdiyimiz paltarların tərkibində bəzən bədən üçün zərərli olan müxtəlif kimyəvi maddələr olur. Bəzən bu kimyəvi



maddələr paltarlarınızda qalır və dəriniz tərəfindən udulur.

## Paltarlara nüfuz edən qoxuların effektiv həlli ütüləmədir

Bəzi bədən bakteriyaları pis qoxuya səbəb ola bilər. Tərlədiyimiz zaman yaranan qoxulardan və bu qoxuya səbəb olan bakteriyalardan ütü ilə xilas ola bilərsiniz.

## Ütülənmiş paltarlar daha uzun müddət yeni görünür

Paltarlarınızı ütülədiyiniz zaman paltarınızın parça formasını daha uzun saxlayacağı üçün uzun müddət yeni görünəcək. Parçadakı liflər zamanla öz formasını itirir. Buxarla ütüləmə onları orijinal formasına qaytararaq paltarlarınızı yeni kimi edir. Dairəvi deyil, xətti şəkildə ütüləsəniz, bu lifləri daha uzun müddət düz saxlaya bilərsiniz.

## Buxar paltarların büzülməsi üçün vacib amildir

Bəzi paltarlar yuyulduqdan sonra kiçilə bilər. Ütü buxar və istilik sayəsində büzülməni geri qaytara bilər. Ütünün geyimi az da olsa genişləndirdiyi bir həqiqətdir.

## Təbii ki, körpələri olan evlər üçün ütüləmə mütləqdir

Bəzən paltarlarımızı özümüz ütüləmirik, amma körpəmizin paltarına gəlincə, heç vaxt yan keçə bilmirik.

## Qənaət

Ütüləmə uzun müddətdə pulunuza qənaət edəcək. Hər şeydən əvvəl paltarlarınız müntəzəm ütü ilə daha uzun sürəcək. Üstəlik, camaşırxana xidmətinə pul xərcləməli olmayacaqsınız.

## Mikrobları və bakteriyaları öldürür

Ütüləmənin faydalarından biri də budur. İndi viruslar və mikroblar aləmindəyik desək yanılmarıq. Geyimləriniz asan hədəflərdir. Təmizləmə onların hamısını öldürməyəcək. Amma buxarlı ütüdən istifadə etsəniz, paltarınızdakı bütün mikrobları və bakteriyaları öldürəcək. Ev heyvanlarınız varsa, ütüləməyə daha çox diqqət yetirməli olacaqsınız. O, paltarlarınızı təravətləndirəcək və onlardan bütün mümkün infeksiya mənbələrini öldürəcək.

## Qırışlı paltarlar sizi səliqəsiz göstərir, ütülü paltarlar isə görünüşünüzü ciddiyə alır

Xüsusən də dövlət idarəsində işləyən və ya hər gün 10 paltar dəyişən ailə üzvləriniz varsa, ütüləmə yenidən həyatın mərkəzindədir.

Hər prosesdə olduğu kimi ütüləmənin də öz çətinlikləri var. Detallara diqqət yetirildikdə ülgüc kimi paltar ütüləmək mümkündür. Müxtəlif quruluşlu parçaları fərqli temperaturda ütüləmək lazımdır. Çünki paltar ancaq bu yolla zədələnmədən qoruna bilər. İşinizi asanlaşdıracaq praktiki təkliflərlə ütünün temperaturunu sabit saxlayaraq düzgün ütüləyə bilərsiniz. İstifadə etdiyiniz ütü üsulları da parça quruluşuna görə fərqli olmalıdır.

## Paltarların daha gec qırışması üçün üsullar:

*1) Buxarı daha uzun saxlayın*

Uzun müddət eyni yerdə qalmaq paltarlarınıza zərər verəcək, ancaq geniş bir yerə davamlı buxar üfürərək ütüləmək həm parça quruluşunu yumşaldacaq, həm də daha uzun müddət qırışların qarşısını alacaq.

İpucu: Uzun müddətli ütüləmə zamanı paltar istər-istəməz zədələnə bilər, buna görə də paltarınızın üzərinə nazik parça taxaraq nazik divar yarada bilərsiniz.

*2) Su spreyi hazırlayın*

Bəzi hallarda ütünün su anbarından püskürən su kifayət olmaya bilər. Ütüləmə zamanı yanınızda əlavə su spreyi saxlamaq ütüləmə zamanı böhran anlarında birbaşa istifadə edilə bilər.

Əlavə olaraq, yanlış istiqamətdə ütüləsəniz və ya xətti əyri etsəniz, onu bərpa etmək üçün birbaşa su spreyindən istifadə edə bilərsiniz.

*3) Müvafiq asılqanlardan istifadə edin*

Ütüləmə prosesi bitdikdən sonra onu təsadüfən asılqandan asmaq bütün səylərinizin boşa getdiyinə işarədir.

Hər bir paltar üçün xüsusi asılqanlar almağınızdan əmin olun. Məsələn, köynəyiniz üçün taxta asılqan seçdiyinizə əmin olun.

Gəlin çamaşırların asan ütülənməsini təmin edən təkliflərə nəzər salaq:

* Paltaryuyan maşınınızın qurutma proqramı sizə daha asan ütüləmə imkanı verəcək.

* Paltarları yuyarkən yumşaldıcıdan istifadə etmək onun qırışmasının qarşısını alacaq.

* Paltarları asarkən dirəklərdən istifadə etməmək asan ütülənməsini təmin edir.

* Quruducu yoxdursa, çamaşırları asmaq kömək edə bilər.

* Üzəri yazılı geyimlər arxa tərəfdən ütülənməlidir.

* Buxarı buraxmazdan əvvəl ütü tam qızdırılmalıdır.

* Çamaşırların ən yaxşı şəkildə ütülənməsi üçün ütü masasının üzərinə ön və arxa, alüminium folqa düzülməli və ütüləmə rəvan aparılmalıdır.

## Şalvarları necə ütüləmək olar?

Həssas parça şalvarlar aşağı rejimdə ütülənməlidir. Şalvar parça növündən asılı olaraq diqqətlə ütülənməlidir. Parça şalvarları ütüləyərkən üzərinə nəm parça qoyulmalıdır. Sərt parçadan olan şalvarları ütüləyərkən yüksək istilikdən qorunmaq lazımdır. Ütünü yüksək temperatura qoymaqla ülgüc kimi ütüləmək mümkündür. Şalvarın parçasını diqqətlə seçmək və parçaya uyğun ütüləmək lazımdır. Şalvar ütüləməyə başladığınız zaman detallara diqqət yetirmək möhtəşəm görünüş əldə etməyinizi təmin edəcək. Qırışların qarşısını almaq üçün cins şalvar maşından çıxdıqdan sonra dartılmalıdır. Lakin onun qırışmış qalmasını istəmirsinizsə, ətəyi və cib hissələrinə üstünlük verərək tərs tərəfdən başlamalı, sonra qalan hissələri ütüləməlisiniz.

## Parça şalvarları necə ütüləmək olar?

Hər şeydən əvvəl ütünün tənzimləməsinin düzəldilməsi və parçanın növünə görə temperaturun aşağı salınması təsirli tədbirlər olacaq. Çünki parça şalvar ütüləmə izləri və parıltı buraxa bilər. Şalvarı ütüləməyə başlamazdan əvvəl ilk növbədə cibləri çıxarmaq lazımdır. Daha sonra parça şalvarın tikiş izləri müəyyən edilməlidir. Tikişləri paralel olaraq ütü masasına qoyulmalıdır. Parça şalvarların ütülənməsi bu şəkildə başlamalı, daha sonra alt ayağın daxili hissəsi və yuxarı ayağın xarici hissəsi ütülənməlidir və parçanın qırışmasının qarşısını almaq üçün proses mümkün qədər tez və diqqətlə tamamlanmalıdır. Parça şalvarın xətlərini tamamlamaq üçün intensiv şəkildə buxar tətbiq edilməlidir. Ütünün qəbulu aşağı səviyyədə olmalı, lakin buxar yüksək səviyyədə olmalıdır. Parçanın tərkibi sintetikdirsə, yanmamaq üçün əlavə diqqət yetirilməlidir.

## Köynəyi necə ütüləmək olar?

Köynək ütüləmə əməliyyatları ilk növbədə yaxadan başlamalıdır. Birbaşa ütüləmə zamanı qırışlar hamarlanmayacaq və davamlı ütüləmə tələb olunacaq. Bir az ipucu versəydik, deyə bilərik ki, qol uclarının içinə dəsmal yuvarlamaq və ütü ilə gəzdirmək möhtəşəm görünüş üçün təsirli olacaq. Köynəyin yaxalıq hissələrində ütüləmə nişastasından istifadə etməyə ehtiyac yoxdur. Yaxalıqdan sonra çiyinlər və arxa tamamilə ütülənməlidir. Xətlər keçilməli və aydınlaşdırılmalıdır. Bütün bədən ütüləndikdən sonra asılqandan asılmalıdır. Unudulmamalıdır ki, ülgüc kimi ütülənən köynəklər izdihamlı şkafa girəndə qırışacaq. Köynəklər mümkün qədər nəmli halda ütülənməlidir. Quru köynəkləri ütüləmək daha çətindir. Ütülərin su püskürtmə xüsusiyyətindən istifadə edərək köynək parça nəmləndirilməlidir. Köynəyin qolunu ütüləyərkən xətlər aydın şəkildə tənzimlənməli və ütüləmə mövcud xətt üzərində aparılmalıdır. Parçaya parıltı verməmək üçün ütüləmə parametrləri parça növünə uyğun olaraq edilməlidir. Pambıq parçalarda daha az parıltı olacağı üçün yüksək istilik rejiminə üstünlük verilə bilər. Sintetik parçalar aşağı temperaturda ütülənməlidir. Köynəkləri ütüləyərkən temperatur parametrləri aşağıdakı kimi olmalıdır:

* Pambıq parçalar üçün yüksək temperatur rejimi,

* Pambıq və sintetik qarışığı, orta istilikdə,

* Sintetik parça ən aşağı istilik rejimində ütülənməlidir.

## Ütüləmə prosesini əyləncəli hala salmaq

Paltar ütüləmək çoxları üçün çətin olsa da, əslində onu əyləncəli etmək mümkündür. Bu səbəbdən ütüləmə zamanı ilk növbədə psixoloji durumunuz gəlir. Ütüləmə zamanı sevdiyiniz mahnıları dinləmək və yeməklər yemək zövqlü ütüləmə təmin edir. Uzun ütüləmə proseslərini darıxmadan etməli olduğumuz başqa bir təklif də oturarkən ütüləməkdir. Asan ütüləmə üçün bədən mövqeyi son dərəcə vacibdir. Ütülənəcək çoxlu çamaşırlarınız varsa, ütü masasının səviyyəsi oturma səviyyəsinə uyğun olaraq tənzimlənməlidir. Kresloda oturaraq ütüləmək daha sağlam olardı. Ütünün keyfiyyəti də son dərəcə vacibdir. Keyfiyyətli ütü markaları arasından seçim etməli və ən yaxşı xüsusiyyətləri olanları seçməlisiniz.

***Ayşən Vəli***

ARAŞDIRMA

# Şərqin inkişaf etmiş elm və mədəniyyət mərkəzi - İRƏVANIMIZ

Qədim mədəniyyətə və zəngin ədəbi irsə malik şəhərlərindən biri olan İrəvan ədəbi-estetik fikrimizin inkişafında da böyük rol oynayıb. XX əsrin əvvəllərinə qədər Bakı, Təbriz, Xoy, Naxçıvan və başqa şəhərlər ilə yanaşı, İrəvan da Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzi kimi tanınmışdır. İrəvan şəhəri Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olmuşdur. Bura məşhur şairlər, nasirlər, elm və mədəniyyət xadimləri yetişdirmişdir. XIX əsrin əvvəlində rus qoşunlarının şəhəri işğalından sonra qiymətli əlyazmaların böyük əksəriyyəti məhv edilmişdir. Əsasən məscidlərdə və mədrəsələrdə saxlanılan qiymətli əlyazmaların əksəriyyəti yandırılmışdır. İrəvan xanlığının ərazisində yeganə işlək dil Azərbaycan türkcəsi olmuşdur. Mənbələrdə göstərilir ki, İrəvan və Naxçıvan xanlıqlarının ərazisində 1829-1831-ci illərdə kameral siyahiyaalma keçirən rus tarixçi-statisti İ.Şopen "tatar dilinin" - yəni Azərbaycan dilinin yayılma arealı haqqında belə qənaətə gəlmişdir: "Bu məşhur dil haqqında bir neçə söz deməmək mümkün deyildir, hansı ki, Adriatik dənizindən tutmuş, Sakit, Hind və Atlantik okeanlarının sahillərinədək, Qədim Dünyanın üçdəbir hissəsində milyonlarla xalqlar bu dildə anlaşırlar". Böyük rus şairi M.Y.Lermontov Qafqazı gəzdikdən sonra bu qənaətə gəlmişdi: "Tatar dilini (yəni, Azərbaycan dilini) öyrənməyə başlamışam, fransız dili Avropada zəruri olduğu kimi, bu dil də burada və ümumiyyətlə Asiyada zəruridir". Görkəmli alim Səməd Sərdariniyanın "İrəvan müsəlman sakinli şəhər olmuşdur" kitabında tarixi Azərbaycan torpaqlarında süni surətdə bir erməni dövləti qurulduğu, yüzilliklər boyu Azərbaycan şəhəri olan İrəvanın necə Ermənistan Respublikasının paytaxtına çevrildiyi tarixi-elmi faktlarla əksini tapır. İrəvanın məşhur Göy məscidi və digər məscidləri, Ermənistanda qalıqları mövcud olan islam abidələri, İrəvanlı alimlər və ruhanilər, görkəmli şəxsiyyətlər, şair və yazıçılar haqqında məlumatlar verilmişdir.

Mənbələrdə qeyd olunduğu kimi, elm və mədəniyyət tariximizə "İrəvani" təxəllüsü ilə daxil olmuş bir çox alim, ədəbiyyat və mədəniyyət xadimi bu xəzinəyə önəmli töhfələrini veriblər. Mirzə Qədim İrəvani, Fazil İrəvani, Balağa İrəvani, Mirzə Müslüm İrəvani, Aşub İrəvani, Mirzə Məhəmməd İrəvani, Dəlil İrəvani, Əbdülkərim İrəvani və başqaları bu sırada adlarını qeyd etmək olar. Çar Rusiyası dövründə İrəvan ədəbi-mədəni irsinin inkişafında Firudin bəy Köçərli, İsmayıl bəy Şəfibəyov, Eynəli bəy Sultanov kimi qabaqcıl fikirli ziyalıların əvəsiz rolu olmuşdur. Müxtəlif vaxtlarda İrəvanda olmuş səyyahlar, salnaməçilər, tədqiqatçılar İrəvan şəhərini Şərqin inkişaf etmiş elm və mədəniyyət mərkəzi kimi təsvir etmişlər. XIX əsrin əvvəllərində İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra İrəvanın imkanlı və ziyalı elitasının xeyli bir qismi şəhəri tərk etmişdir. Tarixin müxtəlif dönəmlərində dövrünün tanınmış simaları soyqırıma və deportasiyaya məruz qalmış, dünyanın bir sıra ölkələrinə - Şimali Azərbaycan, Türkiyə, Orta Asiya, İran, Rusiya və digər ölkələrə üz tutmuşdular. İrəvan, dövrünün mədəniyyət mərkəzi olmuşdur. Bu gün İrəvan mühitinin yetirdiyi ziyalılardan söhbət açacağıq. Onlardan biri, musiqinin müxtəlif janrlarında özünü istedadlı bəstəkar kimi təsdiqləyən XX əsrin görkəmli sənətkarı, respublikanın xalq artisti, SSRİ dövlət mükafatı laureatı, bəstəkar, pedaqoq Səid Rüstəmovun yaradıcılığının hər dövrü zənginliyi ilə seçilir.

## O ŞƏHƏRİ ÖLƏNƏ QƏDƏR İRƏVAN DEYƏ ANDI

Səid Əli oğlu Rüstəmov İrəvan şəhərində anadan olmuşdur. Bəstəkarın qızı Rəna Rüstəmova xatirələrində belə yazır: "Atam İrəvanı xatırlayanda yanğılı həsrət ahları çəkirdi. O şəhəri ölənə qədər İrəvan deyə andı. Heç rəsmi çıxışlarında da bir dəfə olsun "Yerevan" demədi." Onun qızı Rəna Rüstəmova atasının ailəsinin məskunlaşması və adı barədə isə yazır: "Atam danışırdı ki, İrəvanda evləri Göy məscidin yanında olub və seyid olduqları üçün ocaq sayılıb. Atamın əsl adı Mircabbar Seyidrüstəmzadədir. Bakıya gələndə pasport verilən yerdə ermənilər, ya da ruslar işləyirdi. Orda işləyənlər deyir ki, bu nə addır, çox uzundur. Atam məcbur olur ki, adını Səid Rüstəmov olaraq dəyişdirib yazdırsın".



Uşaq yaşlarında atasını itirən Səid Rüstəmovun tərbiyəsi ilə böyük qardaşı Mirhüseyn Rüstəmov məşğul olur. Tar alətində çalmağı bacaran Mirhüseyn Rüstəmov kiçik qardaşı Səid Rüstəmovun musiqiyə həvəs göstərməsində də mühüm rol oynamışdır. 1918-ci ildə baş verən hadisələr, azərbaycanlılara qarşı ermənilər tərəfindən törədilən qırğınlar bu ailənin də taleyində öz izini qoymuşdur. Qırğınla əlaqədar Türkiyəyə qaçmalı olan ailə tezliklə geri dönmüş, lakin İrəvanda evlərinin dağıldığını gördükdə 1919-cu ildə Gəncəyə köçməyə başlamışlar. Səid Rüstəmovun aləsi burada çox qalmır - qardaşı Mirhüseyn Rüstəmovun ermənilər tərəfindən qətlə yetirilməsindən sonra Ağdaşa köçürlər. Odur ki, 12 yaşlı Səid Rüstəmovun musiqi ilə məşğuliyyəti Ağdaşda olan klubdan başlanır. O, burada piano çalmağı öyrənir, kiçik yaşlarından qulaq asıb sevdiyi xalq melodiyalarını bu alətdə ifa edir, klubda təşkil edilən konsertlərdə çıxış edirdi. Həmin klubda Maqsud Şeyxzadənin "28 nisan inqilabı" adlı pyesi tamaşaya qoyulmuşdu. Səid Rüstəmov bu tamaşadan böyük təəssüratla ayrılmış, sonradan özü də bir pyes yazmışdı. Bunu da həvəskar aktyorlar tamaşaya qoymuşdular. 1921-ci ildə Rüstəmovlar ailəsi Bakıya köçür. Səid Rüstəmov Müəllimlər Seminariyasına daxil olur. Burada başqa fənlərlə yanaşı musiqi dərsləri də keçirilirdi. Səid Rüstəmov burada truba ifa etməyi öyrənir və tələbələrdən təşkil edilmiş orkestrin çıxışlarında iştirak edir. Səid Rüstəmovun yaradıcılıq irsində onun musiqili komediyaları da mühüm yer tutur. O, üç musiqili komediya müəllifidir. Bu janrda ilk dəfə yaradıcılığının erkən mərhələsində - 1930-cu illərdə qələmini sınayaraq, "Beş manatlıq gəlin" əsərini təqdim edən bəstəkar 1940-cı illərdə "Durna" adlı ikinci musiqili komediyasını yazmışdır. 1950-ci illərin sonunda isə "Rəisin arvadı" adlı sonuncu musiqili komediyasını tamamlamışdır.

## AZƏRBAYCANIN GÖZƏLLİYİ MUSİQİDƏ

Səid Rüstəmov yaradıcılığının bir qolunu mahnıları təşkil edir. Təbii ki, hər bir yaradıcı şəxsin sənət dünyasında mahnı janrının yeri müstəsnadır. Xüsusilə də, Səid Rüstəmov yaradıcılığında. Azərbaycan xalq musiqisinə, muğamlara, aşıq havalarına maraq göstərən Səid Rüstəmovun bəstəkarlıq fəaliyyəti dövründə klassik sənət nümunələri mühüm rol oynamışdır. Azərbaycan folklor nümunələrinin - musiqinin bilincisi olan bəstəkar yaradıcılığın axtarışında, məhz qeyd etdiyim kimi, muğama, aşıq musiqisinə, xalq rəqslərinə, eləcə də, müasir musiqiyə müraciət etmişdir. Səid Rüstəmov yaradıcılığında aktual mövzular ana xətt olaraq davam etdirilmişdir. Möcüzəli musiqisi ilə təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində sevilən, rəğbətlə qarşılanan Səid Rüstəmov musiqisinin əsasında, vətən məfhumu, insan və onun əməlləri təşkil edir. Bu baxımdan o, dövrünün ahənginə uyğun olaraq, vətənə sevgisini, Azərbaycanın gözəlliyini, müxtəlif peşə sahibi olan insanların obrazını mahnılarında canlandırmış və uğurlu əsərlərin müəllifinə çevrilmişdir. Vətən sevgisindən yoğrulmuş "Bakı haqqında mahnı", "Azərbaycan", "Gözəl Quba", gənc sənaye şəhəri Sumqayıtın yaradılmasına "Sumqayıt", neftçilərin həyatını əks etdirən "Neftçi oğlan", poetik arzuları ifadə edən "Oxu gözəl", "Həkim qız", "Getmə-getmə", "Maralım gəl", "Ala göz", "Haralısan", "Sevgilim", sülh arzusu ilə yaratdığı "Mən sülhə səs verirəm", "Sülhün səsi", coşğun hisslərlə baharın təsvirinə həsr etdiyi "Bahar olsun", "Şer deyilmi" musiqi parçalarının melodiyasını dinlədikcə Səid Rüstəmov yaradıcılığının ən dərin qatları, potensial qüvvəsi özünü biruzə verir. İkinci Dünya müharibəsi illərində bir çox yaradıcı şəxslər kimi Səid Rüstəmov da bəstələdiyi musiqi nömrələri ilə insanları mübarizəyə, qələbəyə doğru səsləyirdi. Həmin dövrdə o, "Cəbhəyə", "Dənizçilər mahnısı", "İrəli" kimi mahnılarını bəstələyir. 1945-ci ildə isə sözləri Rəsul Rzaya məxsus olan "Dinlə, cəbhə" teatrlaşdırılmış kantadasını bəstələyir.

## ZƏNGİN MƏNƏVİ SƏRVƏTİMİZ

Təsadüfi deyil ki, bəstəkar ciddi və çətin janrlarda yaratdığı əsərlərinə görə deyil, məhz 1951-ci ildə mahnı janrında bəstələdiyi musiqi nömrələrinə görə, dövlət mükafatına layiq görülür. Onun bəstələdiyi musiqi nömrələrini dövrünün böyük sənətkarları Xan Şuşinski, Rəşid Behbudov, Lütviyar İmanov, Şövkət Ələkbərova, Sara Qədimova, Gülağa Məmmədov kimi müğənnilər ifa etmişlər. Səid Rüstəmovun mahnıları hər zaman orijinallığı ilə diqqəti cəlb etmiş və yetişən musiqiçilərin repertuarına daxil edilmişdi. O, elə bəstəkarlardandır ki, sənətkarın yaradıcılıq məhsulu olan nümunələrə klassik əsərlər kimi ehtiyac, mənəvi tələbat duyulur. Səid Rüstəmovun mahnı janrında yaratdığı musiqi parçalarının qeyd etdiyimiz kimi mövzu dairəsi genişdir. Belə ki, insanların sülh arzusu, humanizm prinsipləri, beynəlmiləlçilik ideyaları saf təmiz hisslərin tərənnümü onun musiqisini məzmun baxımından səciyyələndirən cəhətlərdir. Kədər, qüssə, ayrılıq kimi notlar üzərində bəstələmiş mahnılarında da bəstəkar lirik qəhrəmanının bədii portretini olduqca ustalıqla dinləyicisinə çatdırmağa müvəffəq olmuşdur.

Onun lirik məzmun daşıyan mövzularında ali hisslərin bədii ifadəsi əks olunmuşdur. Müqəddəs duyğuların təsviri zərif, incə notlarla ifadə edilmişdir. Musiqini müxtəlif melodiyalarla nikbin, lirik, kədər notları ilə təqdim edən bəstəkarın yaradıcılığına daxil olan mövzuların sözləri ilə musiqisi arasında mövcud olan vəhdət diqqətdən yayınmır. Onun mahnılarının saysız musiqisevərlərə sevdirən təbii ki, bəstəkarın melodiyası və bu melodiyada qəlbləri dinləndirən, oynadan, insan düşüncəsinə, əqlinə təsir göstərən musiqinin emmosionallığı, cazibəsidir. Bu musiqilərdə Səid Rüstəmovun qəlbini duyub, dərk edirik. Bəstəkarın incə ruhunun, yüksək bədii estetik zövqünün nəticəsi olaraq təkrarsız mahnılar yaranmışdır. Melodiyalarındakı təkrarolunmaz orijinallıq, fərdi ştirixlər Səid Rüstəmov musiqisində parlaq ifadə olunmuşdur. Onun musiqisinə axıcılıq, ürəyəyatımlılıq, rəvanlıq hakimdir.

## SƏİD RÜSTƏMOV YARADICILIĞINDA XÜSUSİ MƏRHƏLƏ

Səid Rüstəmov lirik qəhrəmanlarının psixoloji gərginliyini, arzu və istəyini musiqinin dili ilə çatdırır. Bu onun musiqisinin ahəngində özünü büruzə verir. Mahnıların nikbin ruhu, ahəngi şerdə ifadə olunan fikirlərə tam uyğundur. Müstəqil yaradıcılıq yolunda daim axtarışlarda olan bəstəkarın əsərləri dərin lirizmi, psixoloji incəliyi ilə seçilir. Musiqinin gözəl ahəngdar alınmasında mətnin nə qədər əhəmiyyət kəsb etdiyini yaxşı dərk edirdi. Mətn obrazlı, həyati, dövrün ab-havasına uyğun seçilməli və dinləyicinin mənəvi tələbatına cavab verməlidir. Odur ki, bəstəkar istedadlı şairlərin yaradıcılığına müraciət etmişdir. Bəstəkar Azərbaycanın klassik şairləri, o cümlədən, Aşıq Ələskər, Məmməd Səid Ordubadi, Hüseyn Cavid, Mikayıl Müşviq, Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm, Zeynal Cabbarzadə, İslam Səfərli, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri kimi şairlərin yaradıcılığana müraciət etmiş, onların əsərlərini musiqisinə mətn seçmişdir. Bəstəkarın yaradıcılıq tərcüməyi-halını nəzərdən keçirdikcə sənətkarlıq xüsusiyyətləri özünü daha aydın şəkildə büruzə verir. O, nəinki musiqi yaradıcılığının nəzəri əsaslarına, eyni zamanda, bəstəkarlıq texnikasına da yüksək səviyyədə yiyələnmişdir.

1931-ci il Səid Rüstəmovun yaradıcılığında xüsusi mərhələdir. Dünya şöhrətli bəstəkar Üzeyir Hacıbəyovun yaratdığı ilk notlu Azərbaycan Xalq Çalğı Alətləri orkestrinin bədii rəhbəri və dirijor təyin edilir. İstər musiqili komediya, istərsə də teatr tamaşalarına yazdığı musiqi əsərləri də öz məzmunu, ahəngdarlığı baxımından seçilən nümunələrdir. Belə ki, bəstəkar 1937-ci ildə Mirzə İbrahimovun "Həyat" pyesinə yazdığı musiqi ilə bu sahədə olan fəaliyyətinin əsasını qoyur. Həmin dövrdən başlayaraq, onun teatrla sıx əlaqəsi yaranır. Azərbaycan Dövlət Dram Teatrında səhnəyə qoyulan Mirzə Fətəli Axundovun "Hacı Qara", Səməd Vurğunun "Vaqif", Cəfər Cabbarlının "Od gəlini", "Almaz", Sabit Rəhmanın "Toy", Ənvər Məmmədxanlının "Şərqin səhəri", Abdulla Şaiqin "Nüşabə", Mehdi Hüseyn və İlyas Əfəndiyevin "İntizar" və digər dram əsərlərinə yazdığı musiqi nömrələri onun, məhz bu sahədəki fəaliyyətinə geniş imkanlar açmışdır. Müəlliflərin fikirlərini düzgün dərk edən və yozumunda musiqinin dili ilə bədii həllinə nail olan Səid Rüstəmov əsas xəttə duran ideyaları qabarıq bir şəkildə tamaşaçıya çatdırmış və tamaşalara yazdığı musiqi nömrələri populyar olmuş, həmin parçalar tanınmış musiqiçilərin repertuarında yer almışdır. Belə ki, "İntizar" tamaşasındakı "Alagöz", "Nişanlı qız"dakı "Hardasan" mahnıları mütəmadi olaraq, konsert salonlarında səslənmişdir.

Səid Rüstəmovun yaradıcılığı zamanın bütün dövrləri üçün ahəngdardır. Belə ki, bəstəkarın yaratdığı əsərlərin hər biri klassikliyini qoruyub saxlayacaq, onun yaratdığı məktəbdən bəhrələnən yetişən nəsillər Səid Rüstəmov irsinin layiqli davamçılarına çevriləcəklər.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Qaydalar və qadağalar ölkəsi - İRAN

## Pezeşkian nazirləri seçir, əvəzində islahatçıların dəstəyini itirir

İslahatçılar düşərgəsinə qeyd-şərtsiz daxil edilən İranın yeni prezidenti Məsud Pezeşkian Nazirlər Kabinetinin tərkibi ilə bağlı təkliflərini parlamentə təqdim edib. Siyahıya İbrahim Rəisinin əvvəlki hökumətindən olan mühafizəkarlar da daxil edilib. Üstəlik, çox güman ki, təhlükəsizlik blokunda əsas vəzifələr - daxili işlər, kəşfiyyat və müdafiə nazirliklərində olacaqlar. Prezidentin bu kompromis yanaşması islahatçılar arasında anlaşılmazlığa səbəb olub. Avqustun 11-də Məsud Pezeşkian İslam Respublikası hökumətinin tərkibi ilə bağlı təkliflərini təqdim edib. Əsas xəbərlər arasında: Xarici İşlər Nazirliyinin rəhbəri postunu nüvə məsələsi üzrə əsas danışıqlar aparanlardan biri, islahatçı kimi təsnif edilə bilən Abbas Əraqçiyə vermək lazım gəlib. Onun məqsədi, İranın müxalifət nəşri olan Iran Wire-ın yazdığı kimi, Qərblə münasibətləri yaxşılaşdırmaq cəhdidir.

Bu arada, təhlükəsizlik orqanları çox güman ki, mühafizəkarların nəzarəti altında qalacaq. O cümlədən, prezident Müdafiə Nazirliyinin rəhbərliyinə Baş Qərargah rəisinin birinci müavini, ölkənin Hərbi Hava Qüvvələrinin sabiq rəisi Əziz Nəsirzadənin namizədliyini irəli sürüb. İsmail Xətib və Əmin Hüseyn Rəhimi isə müvafiq olaraq kəşfiyyat naziri və ədliyyə naziri olaraq qalacaqlar. Onlar mayın 19-da təyyarə qəzasında həlak olan prezident İbrahim Rəisinin mühafizəkar hökumətində də bu vəzifələri tutublar.

Mühafizəkar namizədlər arasında Hüquq-mühafizə qüvvələrinin keçmiş rəis müavini Eskander Momeni də var. Prezident onu Daxili İşlər Nazirliyinin rəisi vəzifəsinə irəli sürüb. İskəndər Momeni İran parlamentinin nüfuzlu spikeri və prezident seçkilərində cənab Pezeşkianın əsas rəqiblərindən biri olan "Məhəmməd-Bağer Qalibafın adamı" adlandırılır. Təklif olunan siyahıda yalnız bir qadın var - Farzaneh Sadegh. Prezident onu Yollar və Mənzil Təsərrüfatı Naziri kimi görür. O, 1979-cu il İslam İnqilabından sonra İranın ikinci qadın naziri ola bilər.









Birincisi 2009-2013-cü illərdə səhiyyə naziri olmuş Marzieh Vahid-Dastjerdi idi. Bu arada prezidentin təklifləri hələ də mühafizəkarların nəzarətində olan parlament tərəfindən təsdiqlənməlidir. Və əlamətdar odur ki, spiker Məhəmməd-Bağer Qalibaf namizədlərin siyahısını oxuyanda fundamentalist partiyalardan olan bir çox millət vəkilləri öz narazılıqlarını yüksək səslə açıq şəkildə ifadə ediblər.

Maraqlıdır ki, Məsud Pezeşkiyanın təklif etdiyi hökumətdə nə bir sünni, nə də İranın etnik azlıqlarının bir nümayəndəsi var - baxmayaraq ki, iyulda keçirilən seçkilərin ikinci turunda siyasətçinin qələbəsini böyük dərəcədə təmin edən etnik millətlərin səsləri olub. Nazirlər Kabinetinin bu konfiqurasiyası islahatçıların qəzəbli reaksiyasına səbəb olub və onlar Məsud Pezeşkianı artıq mühafizəkarların, daha doğrusu mötədil qüvvələrin əsas nümayəndəsi kimi qəbul edirlər. Avqustun 11-də İranın keçmiş xarici işlər naziri, cəmi on gün əvvəl strateji məsələlər üzrə vitse-prezident vəzifəsinə təyin edilmiş (əslində vitse-prezident baş nazir vəzifəsini icra edir) Cavad Zərif istefa verdiyini açıqlayıb. X sosial şəbəkəsində siyasətçi gələcək hökumətin tərkibinə etiraz olaraq getməsinə aydınlıq gətirib. "İşimin nəticələrindən razı deyiləm və utanıram ki, vədlərin əksinə olaraq, komitələrin ekspert rəyinin nəzərə alınmasına və nazirlər kabinetinə qadınlar, gənclər və etnik qrupların daxil edilməsinə nail ola bilmədim", - deyə cənab Zərif vurğulayıb.

O qeyd edib ki, namizədlərin seçilməsi üzrə məsul komitə prezidentə hökumətin gələcək tərkibinin siyahısını təqdim edib, lakin sonda təqdim olunan 19 addan yalnız 3-ü yekun varianta daxil edilib. Eyni zamanda, Cavad Zərifin sözlərinə görə, prezidentin təklif etdiyi siyasətçilərdən on nəfəri ümumiyyətlə şurada nəzərə alınmayıb. Bu o deməkdir ki, yekun tərkibi prezident deyil, ölkənin ali dini lideri Ayətullah Əli Xamenei təsdiqləyib.

### İslahatçını necə prezident seçdilər?

Eyni sosial media paylaşımında Cavad Zərif "daxili siyasətin incəliklərini dərk etmədiyinə" görə İran xalqından üzr istəyib. İran üzrə israilli ekspert Vladimir Mesamed bildirib ki, bu, Qərbyönümlü kursun əsas dəstəkçisi Cavad Zərifin başa düşüldüyü açıq mesajdır: onun İranın inkişafı ilə bağlı baxışı Ayətullahın baxışı ilə üst-üstə düşmür.

”Xarici İşlər Nazirliyinin keçmiş rəhbəri başa düşdü ki, o, sadəcə olaraq, əvvəlki hökumətdən qalan insanlarla və Pezeşkianın seçdiyi şəxslərlə işləyə bilməz. Buna görə də o, getmək qərarına gəlib”, - ekspert izah edib.

Müxalifətdəki İslahatlar Cəbhəsinin rəhbəri Azər Mənsuri mötədil düşərgənin əsas şikayətini açıqlayıb: onlar prezident Pezeşkiyanın barışmaz islahatçı olacağını gözləyirdilər, amma əslində o, indiki sistemə inteqrasiya olunub. Müxalifət lideri X sosial şəbəkəsində sual verib: əgər məqsəd status-kvonu saxlamaq idisə, nəyə görə bahalı seçkilər keçirmək lazımdır? ”Bu hökumətdən möcüzə gözləməyə dəyməz, xüsusən də nəzərə alsaq ki, ölkədə hakimiyyətin 80%-dən çoxu başqa strukturların əlindədir”, - deyən cənab Mənsuri ölkədə real hakimiyyətin prezidentin yox, Ayətullah və İslam İnqilabı Keşikçiləri Korpusunun əlində olduğunu vurğulayıb.





Bununla belə, tanınmış islahatçı Əhməd Zeydabadi təklif olunan hökuməti əvvəlcədən dəfn etməməyə çağırıb. Onun sözlərinə görə, Nazirlər Kabinetinin kompromis tərkibinə və əl-qolunun bağlı olmasına baxmayaraq, Pezeşkian hökumətinin hələ də ölkədə islahatlar aparmaq şansı var.

## İsrail və ABŞ isə...

Fələstinin HƏMAS hərəkatının lideri İsmayıl Haniyənin Tehranda ləğvindən dərhal sonra elan edilən, lakin bir çox mənbələrə görə təxirə salınan İranın İsrailə zərbəsi yaxın günlərdə baş verəcək. İsrailin müdafiə naziri Yoav Qalant bazar günü telefon danışığında amerikalı həmkarı Lloyd Austin ilə onu dəf etmək üçün son hazırlıqları və Tehrana mümkün cavabı müzakirə edib. Həmin gün Pentaqonun rəhbəri ”Georgia” nüvə sualtı qayığının Yaxın Şərqə göndərilməsi barədə göstəriş verib və ”Abraham Linkoln” təyyarədaşıyan gəmisinin bölgəyə yerləşdirilməsi sürətləndirilib. Tehranın özü də hücumun qaçılmaz olduğunu təsdiq edir, eyni zamanda İsrailə zərbənin Qəzza zolağındakı münaqişə ilə bağlı avqustun 15-nə planlaşdırılan danışıqlara təsir etməməsi barədə xəbərdarlıq edir.

Fələstinin HƏMAS hərəkatının Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyənin iyulun 31-də Tehranda öldürülməsinə cavab olaraq dünyanın da gözlədiyi İsrailə qarşı irimiqyaslı hücum, görünür, yaxın günlərdə baş verəcək. Axios portalının İsrail kəşfiyyatındakı iki mənbəyə istinadən verdiyi xəbərə görə, Qətər və Misirin vasitəçiliyi ilə avqustun 15-nə planlaşdırılan Qəzza üzrə danışıqlardan əvvəl də yəhudi dövlətinə qarşı cavab zərbəsi baş verə bilər. İsrail Müdafiə Qüvvələrinin (IDF) sözçüsü Daniel Hagari ordunun ”yüksək hazırlıq səviyyəsində” olduğunu deyib. Öz növbəsində, Pentaqonun müdafiə nazirliklərinin rəhbərləri arasında söhbətdən sonra verdiyi bəyanatda qeyd olunur ki, Lloyd Ostin İsrailin sarsılmaz dəstəyini təsdiqləyib və Yoav Qalantı regionda ABŞ hərbi qrupunun gücləndirilməsi tədbirləri barədə məlumatlandırıb. Həmin gün Lloyd Austin ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) məsuliyyət zonasına keçidi sürətləndirmək üçün göyərtəsində F-35C qırıcıları olan Avraham Linkoln təyyarədaşıyan gəmisinin başçılıq etdiyi aviadaşıyıcı zərbə qrupuna əmr verib. Təyyarədaşıyan Teodor Ruzveltin gəmizinin başçılıq etdiyi qrup isə artıq fəaliyyət göstərir. Bundan əlavə, Pentaqonun rəhbəri ”Tomahawk” qanadlı raketləri ilə təchiz edilmiş ”Georgia” nüvə sualtı qayığının CENTCOM-un məsuliyyət zonasına göndərilməsi barədə göstəriş verib. Bundan əvvəl, hətta iki ölkənin müdafiə nazirliklərinin rəhbərləri arasında söhbət başlamamışdan əvvəl ABŞ-ın Alyaskadan Yaxın Şərqə, ehtimal ki, İordaniyaya 12 beşinci nəsil F-22 Raptor qırıcısı köçürdüyü barədə məlumat yayılmışdı.



Tehrandan gələn çoxsaylı siqnallar İsrail tərəfinin gözlənilən eskalasiya ilə bağlı qənaətlərinin doğruluğunu təsdiqləyir. Mehr agentliyi xəbər verib ki, İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) donanmasına 2640 ədəd hərbi texnika təhvil verilib. Onların arasında orta və uzaq mənzilli müasir raket kompleksləri var. Həmçinin, döyüş pilotsuz uçan aparatları, gəmi radar stansiyaları və elektron döyüş texnikası SEPAH Hərbi Dəniz Qüvvələrinə verilib.

Öz növbəsində İranın qərbindəki Kirmanşah əyalətinin İraqla həmsərhəd olan Qəsre-Şirin şəhərinin prefekti Məhəmməd Nəcəfi bildirib ki, İİKK bu şəhərdə hərbi təlimlər keçirir. Keçən bazar günü İİKK rəhbərliyi İsrail tərəfinin qorxularının doğruluğunu təsdiqləyən yeni bəyanatla çıxış edib. İran İslam İnqilabı Keşikçiləri Korpusu komandirinin müavini Əli Fədəvinin dediyi kimi, İsmayıl Haniyənin qətlindən sonra İran İsrailə cavab zərbələri endirməkdən əl çəkməyəcək. ”İnqilabımızın lideri Ayətullah Əli Xameneinin əmrləri ən yaxşı şəkildə yerinə yetiriləcək. Hazırda bu, İranın borcudur”, - deyə İranın hərbi lideri ötən şənbə günü əmin edib.

Mehr xəbər agentliyi Ayətullah Xameneinin siyasi müşaviri Əli Şəmxaniyə istinadən yazır ki, Tehran ”yalnız güc dilindən anlayan İsrail hakimiyyətini sərt şəkildə cəzalandırmaq” üçün hazırlıq görüb. İran diplomatları da yeni döyüşkən bəyanatlar verməyə başlayıblar. İran Xarici İşlər Nazirliyinin ötən həftənin sonunda verdiyi bəyanatda deyilir: ”İsrail rejiminin regionda və dünyada nəfəs alması günü-gündən daralır və bu rejimə qarşı qlobal hiddət artır”.



Tehran İsrailə qarşı gözlənilən zərbəni Qəzza ilə bağlı avqustun 15-nə planlaşdırılan danışıqlarla əlaqələndirməməyə çağırır və hesab edir ki, bu danışıqlar planlaşdırılan əməliyyatdan imtina üçün əsas olmamalıdır. ”Bizim özümüzü müdafiə etmək üçün qanuni hüququmuz var, bu Qəzzada atəşkəslə tamamilə əlaqəsi olmayan bir məsələdir. Bununla belə, ümid edirik ki, cavabımız vaxtında olacaq və potensial atəşkəsə zərər verməyəcək şəkildə həyata keçiriləcək”, - İranın BMT-dəki daimi nümayəndəliyinin Nyu-Yorkda yaydığı bəyanatda deyilir. İranın BMT-dəki Daimi Nümayəndəliyi İsrailin 31 iyul hərəkətlərini ”terror aktı” adlandırıb.

Tehranın İsrailə zərbə endirməkdən əl çəkmədiyi barədə bəyanatlar Qərb mediasında İsmayıl Haniyənin qətlinə hərbi cavabın konkret olaraq nə olacağı ilə bağlı İran rəhbərliyi daxilində fikir ayrılıqlarının olması ilə bağlı nəşrlər fonunda yayılıb. Sürətli cavabın alınmamasından sonra The Telegraph İran prezidenti Məsud Pezeşkianın adı açıqlanmayan köməkçilərinə istinadən yazıb ki, o, İsrail ərazisindən kənarda Yaxın Şərqdəki hədəflərə zərbələrə əsaslanan daha yumşaq cavabın tərəfdarıdır.

## Qəzzada atəşkəs parametrləri

Livan ordusunun generalı, İsraillə sərhədin demarkasiyası üzrə komissiyanın keçmiş rəhbəri Əbdülrəhman Şeheytlinin verdiyi məlumata görə, İranın İsrailə cavab zərbəsi endirməsi prinsipi Livandakı müqavimətin cavabından fərqlənir. ”İran böyük regional dövlət hesab olunur, ona görə də onun cavab zərbəsi prinsipi dövlət maraqları əsasında formalaşıb. Heç kim cavab zərbəsinin nə olacağını dəqiq deyə bilməz. Ancaq ən çox ehtimal olunan ssenarilər var. Bu, İsrail ordusunun mərkəzi qərargahlarından birinə və ya hərbi aerodromlara güclü zərbə ola bilər, yaxud yüksək rütbəli hərbi liderə sui-qəsd ola bilər”, - general Şeheitli deyir. Onun fikrincə, İran və Livanda yerləşən radikal şiə qruplaşması ”Hizbullah” hansı addımı atsalar da, son nəticədə onlar yalnız İsrailin hərbi hədəf və qurğularına qarşı yönələcək və mülki şəxslərə toxunmamalıdır.

Öz növbəsində Livanın maliyyə naziri Əmin Salami dəhşətli xəbərdarlıq edib ki, İsraillə müharibənin genişlənməsi onun ölkəsini dərin, uzun sürən böhranla təhdid edir, o zaman ki, artıq iqtisadi artımdan və ya emal sənayesində rifahdan danışmaq mümkün deyil. ”Livanın bu vəziyyətə bir aydan çox dözə biləcəyini söyləyən hər kəs öz cahilliyini nümayiş etdirir. Bank sektoru daimi iflic vəziyyətindədir. Mövsümün qızğın vaxtında turizm əhəmiyyətli dərəcədə azaldı, çoxları müharibədən qorxduqlarından, Livana səyahət etməkdən çəkindilər, işçi qüvvəsi xaricə qaçır və ölkə daxilində iş imkanları yoxdur”, deyə Amin Salami təəssüfləndi.

## İsrailin rəqibləri zərbədən əvvəl...

Bu fonda İngiltərə, Fransa və Almaniya liderləri bazar ertəsi İranı gərginliyin daha da artmasına səbəb ola biləcək hərəkətlərdən çəkinməyə çağırıblar. Böyük Britaniyanın baş naziri Key Starmer, Fransa prezidenti Emmanuel Makron və Almaniyanın federal kansleri Olaf Şolzun birgə bəyanatında deyilir: ”İran və müttəfiqlərini gərginliyi daha da artıracaq və Qəzzada atəşkəs və girovların azad edilməsi üzrə razılaşma əldə etmək imkanını pozacaq hücumlardan çəkinməyə çağırırıq”.

**V.VƏLİYEV**

# Azərbaycan və Mərkəzi Asiya ölkələri: qarşılıqlı maraqlar

## İlham Əliyev: "Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur"



***Azərbaycan Prezidenti İlham Əliyevin avqustun 9-da Qazaxıstanın paytaxtı Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirakı ölkəmizin dünyada artan nüfuzunun və beynəlxalq əhəmiyyətinin göstəricisidir. Əlbəttə, bu Prezident İlham Əliyevin yürütdüyü uzaqgörən siyasətin, Azərbaycanın regionun təhlükəsizliyi, iqtisadi sabitliyi üçün həyata keçirdiyi fəaliyyətin məntiqi nəticəsidir. Bu gün Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin, beynəlxalq təşkilatların sayı durmadan artır.***

Son illər Azərbaycan Mərkəzi Asiya ölkələri ilə inkişafın yeni mərhələsinə qədəm qoyub. Bu əlaqələrin inkişaf etməsi isə təkcə Azərbaycan və Mərkəzi Asiya ölkələri üçün deyil, həm də bütün türk dünyası üçün mühüm əhəmiyyət kəsb edir. İstər regionda, istərsə də dünyada baş verən geosiyasi proseslər dövlətlərin birgə əməkdaşlığında önəmli rola malikdir. Prezident İlham Əliyevin Qazaxıstanın paytaxtı Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə bildirdiyi kimi, ”Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının görüşlərinə dəvət olunması ölkələrimiz arasında mövcud dostluq, qardaşlıq münasibətlərindən və inkişaf etməkdə olan əməkdaşlıqdan xəbər verir”. Son iki ildə Mərkəzi Asiya ölkələrinə 16 dəfə səfər etdiyini xatırladan dövlətimizin başçısı bildirib: ”Həmin müddətdə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan olan həmkarlarım Azərbaycanı ümumilikdə 15 dəfə ziyarət ediblər. Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur. Xalqlarımızı çoxəsrlik tarix, mədəniyyət, din və ortaq dəyərlər birləşdirir.”

Qarşılıqlı səfərlər zamanı imzalanan sənədlər ölkələrimiz arasında münasibətlərin gələcək perspektivlərini müəyyənləşdirir. Müstəqilliyinin bərpasından sonra Azərbaycan Mərkəzi Asiya ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli əlaqələri gücləndirməyi qarşısına hədəf qoydu.

Hazırda Azərbaycanın Mərkəzi Asiya, regionun türkdilli dövlətləri ilə genişlənən əlaqələri yeni reallıqlara uyğun şəkildə inkişaf etdirilir və strateji səviyyəyə yüksəldilib.

### ”ERMƏNİSTANIN İŞĞALINDAN AZAD EDİLMİŞ QARABAĞIN BƏRPASINA DƏSTƏK QARDAŞLIQ MÜNASİBƏTLƏRİMİZİN TƏZAHÜRLƏRİNDƏN BİRİDİR”

Prezident İlham Əliyevin yürütdüyü müdrik, uzaqgörən və düşünülmüş siyasət, xüsusilə Vətən müharibəsində qazanılan tarixi Zəfər Azərbaycanın bütün dünyada nüfuzunu artırıb, onu etibarlı tərəfdaşa, aparıcı regional və beynəlxalq aktora çevirib. Bu gün ihğaldan azad olunan ərazilərimizə dost dövlətləri də öz töhfələrini verirlər. ”Ermənistanın işğalından azad edilmiş Qarabağın bərpasına dəstək qardaşlıq münasibətlərimizin təzahürlərindən biridir. Ermənistan tərəfindən təxminən 30 illik işğal dövründə bu ərazilərdə 9 şəhər və yüzlərlə yaşayış məntəqəsi məhv edilib. İşğaldan azad olunmuş ərazilərdə hazırda genişmiqyaslı bərpa işləri aparılır və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı davam edir”, - deyə Prezident bildirib. Təsadüfi deyil ki, Vətən müharibəsində və ondan sonrakı dövrdə bu regionun ölkələri Azərbaycanın haqq işinə dəstək veriblər. Region ölkələri işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-yenidənqurma işlərinə töhfələrini davam etdirirlər.

Azərbaycan ilə Özbəkistan xalqlarını yaxın milli adət və ənənələr, ümumi dil qrupu, mədəniyyət və din birləşdirir. İşğaldan azad edilmiş Füzuli şəhərində Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə Özbəkistan büdcəsinin vəsaiti hesabına 960 şagirdlik məktəb binası inha olundu. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, akt zalı, idman zalı, yeməkxana, kitabxana yaradılıb. ”Ötən il Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan Mirzə Uluqbəy adına orta məktəbin, bu il isə Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı olub. Həmçinin bu il Ağdam rayonunda Qırğızıstanın hədiyyəsi olan orta məktəb binasının təməlqoyma mərasimi keçirilib. Bu qardaşlıq dəstəyinə görə Özbəkistan, Qazaxıstan və Qırğızıstan prezidentlərinə təşəkkürümü bildirirəm” - deyə Prezident bildirib. Eyni zamanda, Qırğız Respublikasının təşəbbüsü ilə Ağdamın Xıdırlı kəndində inşa ediləcək orta məktəb bu dəstəyin bariz nümunəsidir.

### ”AZƏRBAYCAN BƏRPAOLUNAN ENERJİ SAHƏSİNDƏ MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİ İLƏ SIX ƏMƏKDAŞLIQDA MARAQLIDIR”

2020-ci ildə Vətən müharibəsində Qarabağ və Şərqi Zəngəzuru erməni işğalından azad edən Azərbaycan bununla Türk dünyası ölkələri arasında coğrafi bağlantını da təmin etmək üçün gözəl imkan yaradıb. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda Zəngəzur dəhlizinin açılması ilə bağlı bəndin yer alması və bu müddəanın yerinə yetirilməsi Türk dövlətlərini coğrafi baxımdan da bir-birinə bağlayacaq, Şərqdən Qərbə uzanan vahid marşrut xəttini formalaşdıracaq ki, bu da böyük bir coğrafiyada yüklərin rahatlıqla, qısa zaman kəsiyində və daha münasib qiymətə daşınmasına böyük töhfə verəcək.

Ümumiyyətlə, dövlətimizin başçısının şəxsi nüfuzu, yürütdüyü uzaqgörən və müdrik siyasət, qazanılan uğurlar sayəsində bu gün Azərbaycan beynəlxalq proseslərə istiqamət verən, yeni və uğurlu təşəbbüslərlə çıxış edən, öz sözünü deyən ölkəyə çevrilib. Ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkatında, həmçinin Türk Dövlətləri Təşkilatında, İslam Əməkdaşlıq Təşkilatında, İqtisadi Əməkdaşlıq Təşkilatında və digər qurumlarda aktiv fəaliyyəti onun qlobal miqyasda cərəyan edən proseslərə təsir imkanlarını genişləndirib.

Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında əlaqələrin böyük perspektivləri mövcuddur. Bu gün Avropanın enerji təhlükəsizliyinə ciddi töhfələr verən Azərbaycan Şərqlə Qərb arasında, o cümlədən Mərkəzi Asiya ölkələri üçün mühüm tranzit ölkə və etibarlı tərəfdaşdır. ”Azərbaycan bərpaolunan enerji sahəsində Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıqda maraqlıdır. Bu ilin may ayında imzalanmış ”Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi üzrə Əməkdaşlıq Memorandumu” yaşıl enerji sahəsində əməkdaşlığımızda ilk addımdır”, - deyən Prezident bildirib ki, qarşılıqlı fəaliyyətimizin mühüm istiqamətlərindən biri də nəqliyyat-tranzit sahəsində əməkdaşlıqdır : ”Bakı-Tbilisi-Qars dəmir yolunun yükaşırma qabiliyyətinin 1 milyon tondan 5 milyon tonadək artırılması, Ələt Beynəlxalq Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tonadək artırılması istiqamətində görülmüş işlər, Xəzər dənizində Azərbaycanın ticarət donanması üçün yeni gəmilərin sifariş edilməsi, eləcə də Mərkəzi Asiya ölkələrində infrastruktur layihələrinin həyata keçirilməsi Orta Dəhlizin praktiki cəhətdən önəmini daha da artırır. Qazaxıstan, Qırğızıstan və Özbəkistan ilə fəal şəkildə investisiya layihələri həyata keçirilir. Artıq Azərbaycan-Qazaxıstan, Azərbaycan-Qırğızıstan və Azərbaycan-Özbəkistan birgə investisiya fondları yaradılıb.”

### “SPECA-NIN 25 İLLİYİNƏ HƏSR OLUNMUŞ ZİRVƏ GÖRÜŞÜNÜN NƏTİCƏLƏRİ ƏMƏKDAŞLIĞIMIZIN PRAKTİKİ İNKİŞAFI BAXIMINDAN ƏHƏMİYYƏT KƏSB EDİR”

Azərbaycan Şərqlə Qərb arasında mühüm qovşağa çevrilib. Ölkəmizin inkişaf etdirdiyi nəqliyyat-logistika şəbəkəsi, o cümlədən Ələt Dəniz Ticarət Limanının inşası və imkanlarının artırılması, gəmiqayırma zavodunun fəaliyyətinin genişləndirilməsi, ölkəmizin Xəzərdə ən böyük ticarət donanmasına malik olması Avropa ilə Asiya arasında daşımalar üçün olduqca vacib əhəmiyyət daşıyır. Azərbaycanın artan tranzit imkanları, həmçinin Mərkəzi Asiya ölkələrinin, həmin coğrafiyada yerləşən türk dövlətlərinin inkişafına da müsbət təsirini göstərəcək.

Bu gün Azərbaycanın Mərkəzi Asiya ilə əlaqələrinin inkişafı heç də təsadüfi xarakter daşımır. Ölkəmizin bu regionla əlaqələrinin genişlənməsində, heç şübhəsiz, nəqliyyat dəhlizləri də mühüm rol oynayır. Bu baxımdan Prezident İlham Əliyevin Mərkəzi Asiyada yerləşən ölkələrə mütəmadi səfərləri, həmçinin regional təşkilatların tədbirlərində fəxri qonaq qismində iştirakı ölkəmizin region dövlətləri ilə əlaqələrinin dinamikasını nümayiş etdirir. Son bir neçə ilə dövlətimizin başçısının Mərkəzi Asiya ölkələrində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin sammitlərində, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 7-cı Zirvə toplantısında, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərində və digər tədbirlərdə iştirakı, eyni zamanda, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın Zirvə görüşünün Azərbaycanda keçirilməsi ölkəmizə marağın əyani təcəssümüdür. ”Azərbaycan və Mərkəzi Asiya ölkələri beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər”, - deyən Prezident çıxışında ökələrin İqtisadiyyatları üçün Xüsusi Proqramı - SPECA-nı diqqətə çəkib: ”Ötən ilin noyabr ayında Bakıda keçirilmiş, SPECA-nın 25 illiyinə həsr olunmuş Zirvə görüşünün nəticələri əməkdaşlığımızın praktiki inkişafı baxımından əhəmiyyət kəsb edir”.

Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə inkişaf edən və genişlənən əlaqələrinin xarakterizə edən amillər kifayət qədərdir. Mərkəzi Asiya dövlətləri də yaxın, dost, qardaş ölkə olan Azərbaycanla əlaqələrə böyük önəm verirlər. Göründüyü kimi, Azərbaycanın mərkəzi Asiya dövlətləri ilə əlaqələri daha da genişlənir və gələcək inkişaf üçün yeni perspektivlər vəd edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ailə münaqişələri: baltaladığımız gələcək

***Bir neçə il əvvələ qədər "ailə münaqişəsi" ifadəsi adamın qəribəsinə gələrdi. Ona görə ki, ailə şəxsiyyəti və cəmiyyəti formalaşdıran mühüm sosial institutdur. Azərbaycan mədəniyyətində ailə başlıca mərkəzi anlayışdır, ailəyə münasibət isə şəxsiyyətin sosial əhəmiyyətinin qiymətləndirməsinin və özünütəsdiqin vacib amilidir. Bu, əsrlərlə belə olub. Azərbaycan ailələrində və yaxın qohumlar arasında həmişə bir-birinə sayğı, hörmət olub. Hətta qohum ailələrin uşaqları bir-biri ilə oyuncaq üstündə dalaşmaq istəyəndə belə böyüklər buna dərhal reaksiya verib və kiçik bir hadisənin böyüməsinin qarşısını alıblar. Çünki həqiqətən də kiçik bir hadisə sabahkı böyük hadisənin başlanğıcıdır.***



Maraqlıdır, ailə dəyərlərinə bu qədər sadiq bir xalqın nümayəndələri necə oldu ki, ailə daxilində bir-birinə belə aqressiv yanaşmağa başladılar? Hadisələr necə cərəyan etdi, hansı mərhələlərdən keçdi ki, oğul ataya balta qaldırdı, ata övladını öldürdü, oğul anasını bıçaqladı, qız anasını döydü, ər arvadını hər kəsin içərisində təhqir etdi, küçədə arvadını döyərkən bütün qonşular köməyə gəldilər? Necə oldu ki, arvad ərindən gizli işlərlə məşğul oldu və üstü açılanda əri tərəfindən zorakılığa məruz qaldı. Hansı səbəblər, hansı qüvvələr bizim ailə dəyərlərimizi zədələyə bildi. Hansı qüvvələr bizim bir-birimizə olan sayğımızı oğurladı, ailələrimizin, qohumların arasına nifaq toxumu səpə bildi? Biz bunu nə üçün sezə bilmədik, fərqinə varmadıq? Fərqinə varanda isə gördük ki, yox, biz artıq dünənki insanlar deyilik. Dəyişilmişik. Atamıza, anamıza, bacı-qardaşımıza silah endirən, qanına qəltan edən varlıqlara çevrilmişik. Həyat yoldaşımızı təhqir, xəyanət edən, övladımızı doğub küçəyə atan, onu gəzmək adı ilə aparıb dənizə atan yaranmışlara çevrilmişik. Bəs səbəb nədir?



### Deyirlər bunun səbəbi səbirin azalmasıdır

Əgər deyilən kimidirsə, onda bunu anlamağa çalışaq görək ki, səbrimizə nə oldu, o, niyə azalmağa başladı və günlərin birində niyə yoxa çıxdı? Axı bizim səbrimiz tükənməz bir səbir idi. Əsrlərlə ailə institutumuzda aldığımız dərslərin hər birinin mahiyyəti səbirdən ibarət olmuşdu. O institutda digər dəyərlər kimi, səbir etməyi də öyrətmişdilər bizə.



Səbrin azalmasını çox vaxt sosial vəziyyətlə əlaqələndirirlər. Lakin nəzər salsaq, görərik ki, bütün zamanlarda sosial problemlər olub. Hər dövrdə işləyən də, işləməyən də olub, çox qazanan, az qazanan insanlar olub. Lakin bunlar insanların, xüsusilə də doğmaların bir-birinə sayğısına xələl gətirməyib. Az qazanmaq o demək olmayıb ki, insanın səbri azalsın və əzizinə balta qaldırsın. Müvəqqəti işsizlik o demək olmayıb ki, insan övladını öldürsün və yaxud da həyat yoldaşını küçədə döysün.

Bütün bunların baş verməsinin əsla şahidi olmamışıq. Əksinə, zamanla ailələrdə, qohumluqda bu xalqa məxsus dəyərləri müşahidə etmişik. Görmüşük ki, bir ailə kasıbdır, dolanışıq səviyyəsi çox aşağıdır, lakin ailədə hörmət, sayğı var. Deməli, kasıb olmaq, yaxşı maddi gəlir əldə edə bilməmək sayğını qamçılayan səbəb deyil. Qarşılıqlı hörmət, sayğı zaman-zaman ailələrimizdə mehribançılığın, anlayışın təməl daşı olub. Bu anlayış da evlərdə böyüyən uşaqlara sirayət edib. Beləliklə də biz valideynlərimizdən görə-görə gəlmişik. Onlar özlərini ailədə necə aparıblarsa, necə davranıblarsa, biz də bütün bunları öz ailəmizdə tətbiq etmişik.



Elə bu gün də belədir. Kim ailəsində hansı şəraitdə böyüyürsə, bu, onun gələcək həyat amalına çevrilir. Həm müsbət, həm də mənfi mənada.

### Bəs doğmalara ögey münasibətin səbəbi nədir?..

Elə ki, internet həyatımıza daxil oldu, biz xarici ölkələrdə istehsal olunan söhbətimizlə eyni motivdə olan film, seriallara tamaşa etməyə başladıq, zaman-zaman səbrimiz də yoxa çıxmağa başladı. Bu, təbii ki, hər kəsin səbrinə təsir edə bilməz. Əlbəttə ki, psixoloji vəziyyəti zəif olan insanlara, həm də belə film, seriallara, sosial şəbəkələrdəki vəhşət saçan videolara dayanmadan-durmadan baxan insanların psixologiyasını sıradan çıxarır. Nəticə etibarilə də onların səbri yoxa çıxır. Bu qəbildən olan insanlar artıq insani hissləri şeytani hisslərə qurban verirlər. Belə olanda isə oğul əlinə baltanı alır, bütün ailə üzvlərini baltalayır, lakin gözü qandan doymur. Kişi sevgilisi ilə birlikdə həyat yoldaşını döyür. Televizora yüksək səs verdiyi üçün ər arvadına qarşı zorakılıq tətbiq edir.

Qeyd etməyi lazım bilirəm ki, ailə münaqişələrinin əksəriyyəti namus, əxlaq məsələlərinə görə baş verir. Bu xalqın mentaliteti var. Bu mentalitet yüksək əxlaqi dəyərlər əsasında formalaşıb. Bizim səbrimiz o vaxt öz kasasından aşır ki, namusumuza, əxlaqımıza xələl gələn hadisələrlə rastlaşırıq. Bəs bu kimi halların yaranması səbəbi nədir? Yenə də internet, sosial şəbəkələr.

Yuxarıda da qeyd etdiyim kimi, sosial "maarifləndirmə"ni hər kəs eyni cür qarşılamır. Kimi bunun altında nələrin yatdığını anlayır, kimi isə bu "maarifləndirmə"nin toruna düşür. Belə ki, filmlər, sosial şəbəkə videoları çağırır ki, siz də bizə oxşayın: yaxşı geyinmək, bahalı avtomobil sürmək, gözəl evlərdə yaşamaq, bahalı yerlərdə yeyib-içmək üçün xəyanət edin, aldadın, əyri yollara əl atın. Cəmiyyətin psixoloji vəziyyəti zəif olan insanları da bu aldatmaların güdazına gedir. Beləliklə də namus məsələsi ailə münaqişələrinin yaranma predmetinə çevrilir. Məsələn, ərin arvadını sevgilisi ilə birlikdə yaxalayıb öldürməsi, qadının özündən dəfələrlə böyük yaşda kişi ilə birlikdə yaşaması, adi bir münaqişə üstündə kişinin hər kəsin gözü qarşısında arvadını döyməsi, yaxşı geyinmədiyi, yemədiyi, gəzmədiyi üçün həyat yoldaşına "sən kişi deyilsən",- deyən, əvəzində isə yoldaşı tərəfindən bıçaqlanan qadın kimi. Və saya biləcəyimiz yüzlərlə buna bənzər hadisələr...

Deməli, həyatımızın ayrılmaz parçasına çevrilən sosial şəbəkələr bugünkü ailədaxili münasibətləri tənzimləyən alətə də çevrilib.

### Sərxoşluq hər zaman gözlənən hadisənin əsasıdır

Ailə münaqişələrinin əsasında digər tərəfdən isə sərxoşluq dayanır. Bütün zamanlarda alkoqol ailə münasibətlərinin qayçısı olub. Yaxın qohumlar arasında nifaq toxumu olub. İnsan sərxoş olub istənilən hərəkəti törədə bilər. Sərxoş olarkən düşünməkdən kənar olan adama bütün bunların əvəzində sanki güc, enerji gəlir. Elə bu zaman da gözləri qarşısına qalın bir pərdə çəkilir və həyat yoldaşına, övladlarına, ən yaxın qohumlarına, hətta ata-anasına qarşı zorakılıq tətbiq edə bilir. Ayılanda isə artıq iş işdən keçmiş olur. Hadisə baş vermiş, ya ölüm var, ya yaralanan. Arıq gecdir.

Narkomaniya da alkoqolizm kimi ailə münaqişələrində başlıca yer tutan qüsurdur. Bu gün ailə münaqişələrinin statistikasına nəzər salsaq, alkoqollu içkiləri və narkotik vasitələri qəbil edənlərin bu kimi çoxsaylı hadisə törətdiyinin şahidi olarıq.

Buradan isə belə bir qənaətə gəlmək olur ki, kim ki həyatına içkini və narkotik vasitələri daxil edir, zaman-zaman onların aludəçisinə çevrilir, o, bəri başdan sayğıdan da, hörmətdən də əl çəkməyi gözə alır. Açıq şəkildə özü də ətrafındakı doğmaları da bilir ki, bu yolun sonu yoxdur. Onlar ya özlərini məhv edəcəklər, ya da ailələrini.

*Ardı səh. 12*

# Ailə münaqişələri: baltaladığımız gələcək

Əvvəli səh. 11

Buna görə də içki və narkotik vasitələrə doğru gedən insanlar ailələri, yaxın və doğmaları ilə bu vasitə arasında bir uçurumun olduğunu görməli və bu uçurumdan yıxılmamaq, arxada olan hər şeyi məhv etməmək üçün yolun nədən ibarət olduğuna bir daha nəzər salmalıdırlar. Əks təqdirdə özləri kimi, əzizlərini də məhv etmiş olurlar.

## Nə edək ki, doğmalarımıza qarşı doğma olaq

Bu, həm bizim ailə dəyərlərimizdən, həm də bir xalq kimi insani keyfiyyətlərimizdən irəli gələn məsələdir ki, doğmalarımıza qarşı hər zaman doğma, mehriban, hörmətli münasibətdə olmalı, onlara böyük saygı ilə yanaşmalıyıq. Bunun üçün əlimizdən gələni etməliyik. İnsan yeri gələndə sosial şəbəkələrdən, yeri gələndə ağılsız, hərdəmxəyal düşüncələrdən, yeri gələndə alkoqollu içkilərdən və narkotik vasitələrdən kənar olmalıdır.

Ailələrimizdə övladlarımız böyüyür. Özümüz azmış kimi, onlara da vəhşiliyi təbliğ edən filmlərə baxmağa şərait yaradır, körpələrin bu mövzuda cizgi filmlərinə baxmasına səbəbkar oluruq. Gələcəkdə bu uşaqlar münaqişə törədəndə, zorakılıq edəndə deyəcəyik ki, görəsən nə üçün belədir. Anlamaq istəməyəcəyik ki, onu bu hala biz özümüz gətirmişik.

Odur ki, nəyin bizə mənfi təsir edəcəyinin qarşısını əvvəldən alaq. Əl-ələ verib ailə dəyərlərimizi qoruyaq. Onların bu gün hansı bir qüvvəninsə qurbanı olmasına icazə verməyək. Bir də bir qədər səbir, hövsələ, bir qədər anlayış, qarşılıqlı söhbət, dinləmə qabiliyyəti ailə münaqişələrinə, doğmalara qarşı balta qaldırmağa son qoya bilər.





Məsələn, aşağıdakılar kimi:

- münaqişə haqqında danışmaq üçün münasib zaman və məkan olmalıdır. O zaman ki, ac və ya qəzəblisiniz, çətinlikləri həll etmək üçün münasib zaman deyildir. Həmçinin səs-küylü şəraitdə və insanların içində məsələ həll etmək olmaz. Xüsusilə də uşaqların yanında;

-mənfi hisslərinizi bəyan edin. Bəzən həyat yoldaşları öz çətinliklərini demək yerinə, bu hissləri nümayiş etdirirlər: ufuldamaqla, danışmamaqla, qışqırmaqla. Əgər narahatlıqlarını dillərinə gətirməsələr, qarşı tərəf bu hisslərdən xəbərdar ola bilməz. Hissləri bu cür rəftarlarla nümayiş etdirmək yerinə, münasib sözlərlə ifadə etsələr, onu aradan qaldırmaq üçün daha çox şərait yaranar;

-sözlərinizə diqqət edin. Təhqir etməyin, töhmət vurmayın. Əgər səsiniz yüksələrsə, bir qədər özünüzü çimdikləyin ki, səsinizi dəyişəsiniz. Sonra söhbətinizə davam edin;

-keçmiş sandıqları açmayın. Münaqişəni həll etməyin yollarından biri də keçmiş problemləri yada salmamaqdır. Bu rəftar məsələnin daha da qəlizləşməsinə səbəb olar. Hal-hazırda olan problem haqqında danışın, başqa şey haqqında deyi;

-aranızda olan əsl problemi müəyyən edin. Söhbət edən zaman bu mövzunun üzərində dayanın. Yəni bu problemi müəyyən edib, ona dəqiq tərif vermək sizə bu münaqişəni həll etməkdə həll yolu göstərər;

-özünüzün və həyat yoldaşınızın istəklərinə diqqət edin. Hər ikisi də öz istəyini bəyan etsin. Çalışın ki, öz nəzərlərinizi həyat yoldaşınıza qəbul etdirməyə çalışmayasınız. Bu problemə onun da baxışından nəzər salın;

-bu problemdə hər birinizin payına düşən mövzular haqqında söhbət edin. Cütlərin bir çoxu bəhs edən zaman təqsirkar olmadıqlarını sübut etməyə çalışarlar. Qarşı tərəfin təqsirkar olduğunu iddia edərlər. Bunu nəzərə alın ki, qarşı tərəfi ittiham etməklə heç bir çətinlik həll olmaz. Bu zaman ancaq özünü müdafiə etmək münasibətləri daha da çətinləşdirər. Bu məsələdə öz payınıza düşən səhvi araşdırın və boynunuza alın;

-hər biriniz problemi həll etmək üçün hansısa addım atmaq lazımdır. Həyat yoldaşınıza "mənim əlimdən nə gəlirsə, etməyə hazıram",-deyin. Bu problem haqqında söhbət etmək hər ikinizə də öyrədəcəkdir ki, çətinliklə üzləşən zaman necə rəftar etməlisiniz.

Beləliklə, biz elə etməliyik ki, bir-birini söyən, döyən baltalayan ailə üzvləri əvəzinə, bir-birinə saygı, hörmət bəsləyən ailə üzvlərimiz olsun. Gəlin, gələcəyimizi baltalamayaq!

***Mətanət Məmmədova***















# İxtisas seçimi: əmək bazarını nəzərə alın

## Diplom xətrinə perspektivsiz ixtisas oxumaq, yoxsa lazımlı peşəyə yiyələnmək?

***Universitet təhsili insanın peşəkar və şəxsi inkişafında mühüm rol oynayır, ixtisas seçimi isə gələcək həyatını formalaşdıran vacib şərtlərdən biridir. Bu kontekstdə universitet və ixtisas seçərkən nəzərə alınmalı olan əsas amillər böyük əhəmiyyət kəsb edir. Harada oxumalı, hansı universiteti seçməli, hansı ixtisas daha perspektivlidir kimi suallar düzgün analiz edilməli, dəqiq qərar verilməlidir.***



Son 100 ildə baş verən texnoloji inkişaf, bütövlükdə bütün tarixi hadisələrdən daha sürətli baş verib. Texnologiya inanılmaz sürətlə irəliləyir, eyni zamanda bir çox peşənin irəliləməsinin qarşısını alır. Üstəlik, bu üstələməyə təkcə texnologiya deyil, eyni zamanda elmi, sosial, mədəni, ekoloji və iqtisadi inkişaflar da çox təsir edir. Ona görə peşə seçərkən, ixtisas axtarışında olarkən bu xırdalıqları unutmamaq, dövr ilə ayaqlaşan ixtisas seçmək lazımdır.

Mütəxəssislər deyir ki, ixtisas seçimi üçün diqqət ediləcək məqamlar çoxdur. Ümumi qəbul planı, universitetlərdə ixtisaslar üzrə qəbul planı, dövlət sifarişli yerlərin sayı, bal aralıqları, keçən ilin keçid balları ixtisas seçimi zamanı vacib olan əsas məlumatlardır. Bundan əlavə, son 3 ilin analizini, keçid balını keçən abituriyentlərin sayını, abituriyentin maraq dairəsini, ixtisasların gələcək iş imkanlarını, universitetlərin müqayisəsini bilmədən ixtisas seçimi peşmanlıqla nəticələnə bilər. Ekspertlər əvvəlki illərin ballarına istinadən ixtisas seçimi etməyi doğru hesab etmir.

Abituriyentlər ixtisas seçimi edərkən mütləq günümüzün tələbatlı ixtisaslarını seçməklə yanaşı, əmək bazarında iş imkanları geniş olan ixtisas olmasına diqqət etməlidir. Elə məşhur ixtisaslar da var ki, ölkəmizin əmək bazarında məhdud imkanlara sahibdir. Təhsil eksperti Ramin Nurəliyev deyir ki, hazırda yüzlərlə ali təhsil müəssisəsini bitirənlər var ki, düzgün ixtisas seçimi etmədikləri üçün işsizdir və yaxud da, arzuladığı yerlərdə işləmirlər: "Düzgün karyera qurmaq üçün düzgün ixtisasa yiyələnmək lazımdır. Əgər bir abituriyent müəllim kimi özünü görmürsə, onun bu ixtisası seçməsi düzgün deyil. Gələcəkdə müəllim işləməyən birinin müəllimlik ixtisasını 4 il oxuması israfçılıqdır. Bununla yanaşı bəzi iş imkanları məhdud olan ixtisaslar var ki, abituriyentlər ya məcbur seçim edir, ya da bilmədən seçir. Bitirdikdən sonra da günahı başqa yerlərdə axtarır."

Ekspert bildirir ki, abituriyentlər ixtisas seçimi edərkən real ölkəmizdəki tələbatları, gələcək karyerasını nəzərə alaraq düzgün seçim etməlidir. Öz prespektivinizə və potensialınıza uyğun olmayan, o sahədə işləmək istəmədiyiniz ixtisasları seçməyin. Cihaz muhəndisliyini, robototexnika mühəndisliyini seçim etmək üçün Yaponiyada magistr oxumaq yaxşı olardı. Bu imkanlardan məhrumsunuzsa, o ixtisasları seçməyin. Xüsusilə də, bəzi qızların beynəlxalq münasibətlər, regionşünaslıq ixtisasını bitirdikdən sonra işsiz qalması üçün dərin analiz etməsi lazımdır. 4 il sonra ailə qura bilər və ailəsi xaricə getməsinə razı olmaya bilər. Bu ixtisası bitirənlərin iş imkanlarının yarısı xarici olkələrdə olur".

Bilmək lazımdır ki, seçdiyiniz ixtisas ömrünüzün sonuna kimi insan taleyini həll edəcək. Hüquqşünas olmaq potensialınız yoxdursa 4 il universitetdə oxuyaraq sonra diplomlu işsiz kimi evdə oturmalı olacaqsınız. Çünki ölkəmizdə artıq öz ixtisasını sevməyən gənclər ordusu formalaşır. İxtisas seçimi zamanı valideynlərin fikri də ciddiyə alınmalı, düşüncələri diqqətlə dinlənməlidir. Valideynin övladın yerinə ixtisas seçməsi doğru deyil, amma valideynin məsləhəti ilə ixtisas seçmi olması daha uğurlu ola bilər. Çünki valideyn artıq ölkənin əmək bazarını, hansı sahədə işsizliyin çox olduğunu bilir, həyatı yeni başlayan gəncdən daha çox təcrübəsi var.

***Lalə Mehralı***

# Almaniya müharibəyə hazırlaşır

## *Yaxud, Avropa niyə həyəcanlıdır?*

"Almaniya Rusiya ilə hərbi münaqişəyə hazırlanmalıdır". Bu fikirlərlə Almaniya Federativ Respublikasının (AFR) Hamburq torpağı Silahlı Qüvvələrinin komandanı Mixael Giss "Welt am Sonntag" nəşrinə verdiyi müsahibəsində deyib. Ali rütbəli alman hərbçi müharibənin ən geci 5 ildən sonra başlayacağını proqnozlaşdırır.

### Hamburq torpağı Silahlı Qüvvələrinin komandanı Mixael Giss: "Təhlükə hər an qapımızı döyə bilər"




Qeyd edək ki, bu kimi fikirlər Almaniya rəsmiləri tərəfindən ilk dəfədir ki, səslənmir. Gissə qədər bənzər proqnozlarla, hətta həyəcan təbili vurmaqla Almaniya Bundestaqının deputatları, eləcə də Bundesver rəsmiləri çıxış ediblər. Və ən diqqətçəkən məqam isə budur ki, hərbi münaqişə xəbərdarlığı Avropa məkanında ən çox məhz Almaniyanın rəsmi dairələri tərəfindən səslənməkdədir.Giss həmçinin öz müsahibəsində əlavə edib ki, alman dövləti və xalqı bunun üçün sosial planda daha yüksək hazırlıqlı olmalıdır: "Mənim bir əsgər kimi daxili saatım tıqqıldayır və mənə deyir ki, biz sosial planda 5 il sonra kifayət qədər dözümlü olmalıyıq. Çünki təhlükə hər an qapımızı döyə bilər".

### Ukrayna Silahlı Qüvvələrinə verilmiş alman silahlarının səsi Rusiya ərazilərində eşidilir, alman tankları Kursk, Belqorod qəsəbə və kəndlərində şütüyür

Onu da qeyd edək ki, Almaniya yalnız Rusiya təhlükəsi ətrafında məhdudlaşmır, eyni zamanda, son zamanlar İran-İsrail mümkün münaqişəsi ətrafında da ciddi qərarlar qəbul edir və burada da Rusiya amili rol oynayır. Misal üçün, Rusiyanın Ukrayna ilə müharibə aparmasına baxmayaraq, İrana silah tədarükü görməsi və siyasi cəhətdən də dəstəyi fakt kimi göstərilir. Əbəs deyil ki, ABŞ başda olmaqla Böyük Britaniya, İtaliya ilə yanaşı, Almaniya da bəyan edib ki, İran-İsrail münaqişəsində bilavasitə İsrailə dəstək göstərəcək. O cümlədən, Ukrayna amilində də AFR-in cinahı əvvəlcədən bəllidir.Əbəs deyil ki, bu gün Ukrayna Silahlı Qüvvələrinə verilmiş alman silahlarının səsi artıq Rusiya ərazilərində eşidilir, alman tankları Kursk, Belqorod qəsəbə və kəndlərində şütüyür. Bütün bu kimi faktların müqabilində Almaniya rəsmilərinin Rusiya ilə müharibə anonslarını verməlıəri artıq heç bir təəccüb doğurmur. Və sonda daha bir ştrixi də əlavə etmək olar: verilən proqnozlar öz təsdiqini taparsa, artıq bu, Rusiya-Almaniya münaqişəsi deyil, reallıqda Rusiya-Qərbi Avropa və ABŞ müharibəsinə çevrilə, eləcə də həmin proseslər öz axarı ilə 3-cü dünya müharibəsi ilə yekunlaşar.

***Afət Tahirqızı***



**Elçin Bayramlı**

# Bahalaşma davam edir: səbəblər və həll yolları nədir?

İlin ərzaq məhsulu cəhətdən ən bol mövsümü olduğuna baxmayaraq Azərbaycanın istehlak bazarında yüksək qiymətlər müşahidə olunur. Hətta mövsüm meyvə tərəvəzlərinin belə qiyməti yüksəkdir. Bahalaşma və inflyasiya ilə bağlı əhalinin narahatlığı həm deputatlar, həm də ekspertlər tərəfindən gündəmə gətirilir. Bəs bazarlarda ərzaq mağazalarında müşahidə olunan bahalaşmanın obyektiv və subyektiv səbəbləri nədir? Ümumiyyətlə, bazarlarda qiymət məsələsinə nəzarət necə olmalıdır?

Əlbəttə, müxtəlif amillərin təsiri ilə, müəyyən məhsullarda bahalaşma müşahidə olunur, amma bunu süni bahalaşma adlandırmaq olmaz, bu, tam təbiidir, enerji daşıyıcılarının qiyməti bahalaşıbsa, müxtəlif xidmətlərin qiyməti, vergilər, rüsumlar, cərimələr artırılıbsa, belə də olmalıdır. Çünki bütün bu təsirlər nəticəsində məhsulların istehsal və maya dəyəri artıb. Bu halda istehsalçıları qiyməti bahalaşdırmaqda qınamağın heç bir əsası yoxdur- heç kim məhsulunu maya dəyərindən aşağı satmaz- bundansa "dükanı" bağlayıb gedər.

Lakin bəzi hallarda süni bahalaşma hallarına da rast gəlinir, ona görə də, bu sahədə də bir nəzarət olmalıdır ki, qiymətlər monopolist səbəblərdən, ya da yaranmış vəziyyətdən sui-istifadə səbəbindən artmasın. Tutaq ki, məhsulun maya dəyəri 10 faiz artıbsa, qiyməti də 10 faiz artmalıdır, daha 30-50 faiz yox. Dövlət bunu tənzimləmək üçün kiçik və orta sahibkarlara müəyyən güzəştlər edə bilər, monopoliyanın qarşısını tam ala bilər və s.

Əlbəttə, hazırkı dövrdə qiymətləri tənzimləyən səbəblərdən biri də bazarın tələb-təklif məsələsidir. Bazarda qıt olan məhsullar bahalaşır, bol olanlar ucuzlaşır. Buna görə də dövlət yerli istehsalı olmayan və ya çox az olan məhsullar üzrə gömrük rüsumlarını azalda bilər ki, həmin məhsullara tələb təklifi üstələməsin. Bundan başqa, yerli istehsalı dəstəkləmək üçün lazımi addımlar atıla biər ki, yerli məhsul istehsalı çoxalsın. Son nəticədə bazarda bolluq və ucuzluq ola bilər.

Maraqlıdır ki, bahalaşmayan məhsullar, əsasən, xaricdən idxal olunan məhsullardır. Lakin yerli istehsal meyvə-tərəvəz, ət və süd məhsulları bahadır. Ərzaq məhsulları keçən mövsüm daha ucuz idi, indi 50 fazi ətrafında bahalaşma var. Yerli məhsullarda bahalaşma təkcə kənd təsərrüfatı məhsullarında deyil, həm emal sənayesi qida məmulatlarındadır. Belə ki, bitki yağları, meyvə və tərəvəz konservləri, süd məhsulları, ət və ət məmulatları, paxlalılar, ədviyyatlar və s. xeyli bahalaşıb.

Bazardakı vəziyyət göstərir ki, fermerlərin ciddi problemləri var, üstəlik onlar paytaxt və digər iri şəhərlərin bazarlarına rahat çıxış əldə edə bilmirlər. Məhz buna görə sahələrdə məhsul iri şəhərlərdə satılan qiymətdən 5-10 dəfə ucuzdur. Nəticədə, istehsalçı uduzur, istehlakçı uduzur, qazanan yalnız dəllallar olur.

Hazırda bazarlarda yerləri alverçilər tutub, yarmarkalarda da təxminən belədir. Uzun illərdir ki, təklif edirik ki, ölkədə məhsul bolluğu və ucuzluq yaratmaq üçün sadə yol var- KTN daimi yarmarkalar təşkil etməli və yalnız məhsul istehsal edən kəndliləri ora maneəsiz və pulsuz buraxmalıdır. Əgər daimi olaraq belə yarmarkalar fəaliyyət göstərsə, ucuzluq və bolluq olar. Məhsulunu rahat və normal qiymətə sata bilən kəndlinin məhsul əkib-becərmək, heyvandarlıqla məşğul olmaq imkanları və istəkləri artıracaq. Azərbaycanın aqrar sahədə həm daxili tələbatın ödənilməsi, həm də ixrac potensialı genişdir. Bu sahə inkişaf edərsə, istənilən uzunmüddətli böhran zamanı ölkəni ərzaqla təmin etmək olar. Belə olan halda hazırda çox yüksək səviyyədə olan idxaldan asılılığımız minimuma düşər.

Rusiya, ABŞ, Belarus, Türkiyə, həmçinin, əksər Avropa ölkələrində dövlət tərəfindən kənd təsərrüfatına güclü dotasiya ayrılır, əsas ərzaq məhsullarının istehsalı üçün stimullaşdırıcı tədbirlər görülür, fermerlərə güzəştlər edilir. Belə ölkələrdə dövlət tərəfindən fermerin məhsulunun hətta bazar qiymətindən də yüksək qiymətə alınacağı haqda əvvəlcədən müqavilə bağlanır.

Buraya kəndlinin öz məhsulunu sərbəst və maneəsiz şəkildə bazara çıxarma imkanlarını, möhtəkirliyin aradan qaldırılmasını və anti-inhisar tədbirlərini də əlavə etsək, belə ölkələrdə xarici amillərin təsiri ilə böhranın yaranması üçün heç bir səbəbin olmadığı aydın olar.

Aqrar sektorun inkişafı üçün dövlət tərəfindən milyardlarla vəsait ayrılır, sadəcə həmin vasitələrin effektiv idarə edilməsinə ehtiyac var. Bu sahədə kompleks proqramlar hazırlanmalı, vergi güzəştləri tətbiq edilməlidir. İlkin növbədə kiçik və orta sahibkarlara dəstək verilməlidir. Əgər bu tədbirlər effektiv şəkildə həyata keçirilsə, bunun ölkəmizin ərzaq təhlükəsizliyinin tam təmin etməsi ilə bərabər, həm də əhalinin sosial rifahının artmasına müsbət təsiri müşahidə olunar.

# Sevinc Osmanqızı Əli Kərimlinin axırına çıxmağı planlaşdırır




Hər şeyin başlanğıcı olduğu kimi, sonu da olur. Sadəcə, bir məsələ var ki, işin və ya fəaliyyətin sonu qalmaqalla, söz-söhbətlə başa çatmasın. Lakin elə məqamlar olur ki, məsələnin sonu heç də hər zaman sakit şəkildə başa çatmır. Yəni, istər yaxın dostluğun, istər birgə iş fəaliyyətin, istərsə də yola birgə çıxıb addımladığınız əqidə dostları hesab etdiyiniz şəxslərlə yolun sonunda dava-dalaşla ayrılmalı olursan. Belə hallara, əsasən, dağıdıcı müxalifət düşərgəsində rast gəlmək olar. O mənada ki, dünən dost olanlar bu gün qatı rəqiblərə, düşmənlərə çevrilirlər. Ona görə də müxalifət düşərgəsinə inam həddindən artıq aşağı səviyyədədir. Dağıdıcı müxalifət adını eşidəndə və ya hansısa mətndə oxuyanda göz önünə bir-birinə xəyanət edən, biri digərinə düşmən kəsilən şəxslər gəlir. Dostluğa, yoldaşlığa ən böyük zərbəni AXCP sədri Əli Kərimlinin vurduğunu desək, səhv etmərik. Çünki bu məxluq lideri Əbülfəz Elçibəy xəyanət edib, onun əleyhinə iş aparan şəxs olub. Əli Kərimli uzun illər eyni yolu bölüşdüyü görüntüsü yaratdığı Qüdrət Həsənquliyevə, Mirmahmud Mirəlioğluna, Fazil Mustafaya, İsa Qəmbərə, Asim Mollazadəyə, Fuad Mustafayevə və digərlərinə xəyanət edib, onlara zərbələr vurub, siyasətdən silib atmağa çalışıb. Bəzən istəyinə də nail olub. Lakin direniş göstərib, Ə.Kərimlini əski mövqeyinə qayıtmağa məcbur edənlər də olub. AXCP-nin bir neçə yerə parçalanması da Ə.Kərimlinin əqidə dostlarına xəyanət etməsindən yaranıb. Ə.Kərimli üçün hər şey satmaq-satılmaqdır, çünki onun üçün hər şey çox ucuzdur. 30 ildən çoxdur ki, siyasətdə boş-boşuna veyillənən Ə.Kərimli milli və dövlətçilik maraqlarına zərbə vurmaq üçün istənilən addımı atmağa hazır olan, yeri gələndə ermənilərlə belə əməkdaşlıq etməkdən çəkinməyən məxluqdur.

### Əli Kərimli təhlükəli manyaka çevrilir

Hazırda Ə.Kərimli o qədər də təhlükəli olub ki, hətta yaxın ətrafına da hücum etmək, onlara zərər yetirməkdən belə çəkinmir. Xüsusilə də, hədəfində zamanında ona dost əli uzadıb, bir-birinə sadiqlik andı içdiyi şəxslərdir. Ə.Kərimli indi də ABŞ-da qaranlıq niyyətli məxluqlarla qara-qura işlər həyata keçirməyə çalışan Sevinc Osmanqızının başına kəndir keçirib okeanın o tayında gərəksiz trola çevirməyə çalışır. Zatən S.Osmanqızı keyfiyyətsiz trollardandır. Bu o şəxsdir ki, ABŞ-ın qaranlıq dairələrinə sığınıb, Azərbaycanın milli və dövlətçilik mənafeyinə qarşı qarayaxma kampaniyası aparır. Həm də bu məxluq Ermənistandakı revanşistlərsayağı mövqeyi və fəaliyyəti ilə seçilir. Dəfələrlə özünün TV-sində "kaş bizim də Paşinyan kimi demokratik baş nazirimiz olaydı", - deyə erməni lobbisinin sifarişini ifadə edib. Bu, öz yerində. Sadəcə, Ə.Kərimli ilə S.Osmanqızı eyni qabdan qidalanıb, uzun müddət eyni tezisləri ifadə etmişlər. Demək olmaz ki, onların arasından qara pişik keçib. Fakt ondan ibarətdir ki, onların pul bölgüsü üstündə mübahisələri sonda qarşıdurmaya və aralarında əldə olunan sədaqət andının havaya sovrulmasına gətirib çıxartdı. "Soros" Fondunun Gürcüstan nümayəndəliyinin Ə.Kərimliyə ayırdığı 24 min 800 dollar pul vəsaiti tərəflər arasında narazılıq yaradıb. Acıgözlüyü ilə tanınan Ə.Kərimli ayırılan qrant vəsaitindən S.Osmanqızıya verməkdən imtina edib. Bu səbəbdən də S.Osmanqızı TV-sində Ə.Kərimlini və ətrafında olan trollarını hər cür sərt ifadələrlə təhqir edir: "Əli bəy və Fuad Qəhrəmanlı bəlli şəxslərin yazdıqları statusları öz adları ilə sosial şəbəkələrdə paylaşırlar. Bu hal rüsvayçılıqdır. Eyni zamanda, Əli bəy tək müxalifət lideri olduğunu nümayiş etdirmək üçün digər partiya sədrlərini gözdən salmağa çalışır". S.Osmanqızı bu günə kimi Əli Kərimlinin və ətrafının xəstə təfəkkürə məruz qalanlara hazırkı zamana qədər göstərdiyi xidmətinə görə peşman olduğunu deyib.

### Fuad Qəhrəmanlı aparıcı trol olduğunu sübut etməyə çalışır

Ə.Kərimli S.Osmanqızı ilə mübahisəyə girməkdən ehtiyat etdiyi üçün AXCP-də qara işlərin icraçısı kimi tanınan Fuad Qəhrəmanlını qabağa verib. F.Qəhrəmanlı sosial şəbəkə hesabında S.Osmanqızını bir növ ağ yuyub, quru sərib: "Sevinc xanım iddia etdi ki, sən demə, bu yazını mənim adımdan kimsə yazıb. Sevinc xanım işarə edir ki, Qənimət Zahidin sözügedən yazımı öz efirindən oxuması Əli bəyin istəyi ilə olub. Əvvələ, o, "Azərbaycan Saatı"nın yutub səhifəsinə və mənim feysbuk profilimə baxıb görə bilər ki, Qənimət bəy bu günə qədər vaxtaşırı olaraq müəllifi olduğum ölkə siyasəti və beynəlxalq münasibətlərlə bağlı geniş təhlil yazılarımı mütəmadi olaraq oxuyur və Əli bəyin bu məsələyə heç bir aidiyyəti də olmur". Göründüyü kimi, F.Qəhrəmanlı "Əli bəyin bu məsələyə heç bir aidiyyəti də olmur" deməklə Ə.Kəimlini vəziyyətdən çıxartmağa cəhd edir. Lakin "görünən dağa bələdçi lazım deyil" məsəli məhz Əli Kərimli kimi saman altdan su yeridənlər üçün deyilib. Hər kəsə gün kimi aydındır ki, Ə.Kərimli kənarda dayanıb, trollarını qabağa verməklə zamanında "dost" dediyi şəxsləri gözdən salmağa çalışır.Ona görə də, F.Qəhrəmanlının Ə.Kərimlini təmizə çıxartmağa cəhd etməsi uğursuz cəhddən başqa bir şey deyil. Artıq S.Osmanqızı da daşların hansı istiqamətdən və kimlər tərəfindən ona atıldığını yaxşı bilir. Baş verənlərə əsasəndir ki, ötən gün S.Osmanqızı özünün TV-sinə də Ə.Kərimlinin müxalifətin birliyinə zərbə vuran əsas şəxslərdən biri olduğunu söyləyib. S.Osmanqızı "yaxşı ki, bütün bunları gördüm" deyərək özünə təsəlli verməyi də unutmayıb. Yəni S.Osmanqızı gec də olsa anlayıb ki, Ə.Kərimli kimi şəxs mənafeyini hər şeydən üstün tutan birinin maraqlarını müdafiə etməklə, həm də qrant xatirinə ABŞ-ın qaranlıq dairələrinin tezislərini səsləndirməklə nə qədər xəyanətkar və satqınçılıq girdabında fəaliyyət göstərib. S.Osmanıqızı bunu dərk etsə, düzələ biləcəyi ehtimal olunur. Lakin el məsəlidir: "Qozbeli qəbir düzəldər".

***İLHAM ƏLİYEV***

# İsti havalarda hansı işçi hüquqları var?

### İZAH EDİLDİ





"Əmək hüquqlarının tənzimlənməsi çərçivəsində işəgötürən əməyin təhlükəsizliyi və gigiyenası tələblərinə cavab verən iş şəraiti yaratmalıdır. Əmək müqaviləsi və kollektiv müqavilələrdə bu məsələlər nəzərdə tutulur və nəzarəti həmkarlar təşkilatları yerinə yetirir, həmçinin nəzərdə tutulan şərtlərin yerinə yetirilməsi və işçinin əməyinin təhlükəsizliyinin təmin edilməsi işəgötürənin əsas vəzifələrindən biridir". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib. Onun sözlərinə görə, əmək müqaviləsində işçilərin sosial müdafiəsi, əmək şərtləri, iş və istirahət vaxtları və digər məsələlərlə yanaşı, əməyin mühafizəsi üzrə işçinin hüquqları da nəzərdə tutulur:

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 233-cü maddəsilə həll olunur:

233-cü maddədə göstərilir ki,

1.İşçilər aşağı temperatur və şiddətli külək şəraitində açıq havada, habelə ilin soyuq vaxtlarında qızdırılmayan qapalı binalarda işləyərkən onlara qızınmaq üçün fasilələr verilir və ya iş dayandırılır.

2. İşçilər havanın temperaturu azı 41 dərəcə Selsidən çox olan isti və açıq şəraitli iş yerlərində və ya ilin soyuq vaxtında, temperaturu müsbət 14 dərəcə Selsidən aşağı olan örtülü, lakin isidilməyən binalarda işləyərkən onlara bu maddə ilə müəyyən olunmuş qaydada fasilələr verilir və iş dayandırılır.





3. İşçilərə fasilələr verilməsi və işin dayandırılması üçün əsas hesab edilən havanın temperaturu və küləyin gücü bu Məcəlləyə 2-ci əlavədə nəzərdə tutulmuşdur.

4. Fasilələr iş vaxtına daxil edilir və bu fasilələr zamanı əmək haqqı işçilərin tarif maaşına görə ödənilir.

5. İş dayandırıldıqda, boşdayanma vaxtının haqqı işçinin təqsiri üzündən baş verməyən boşdayanma kimi, tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə 2-ci əlavə

İlin soyuq vaxtında açıq havada və ya isidilməyən örtülü binalarda, habelə isti havalarda işin dayandırılması və işçilərə fasilələrin verilməsi şərtləri

Havanın temperaturu 41 dərəcə Selsidən çox olan hava şəraitində açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılır və işçilərə sərinləşmək üçün imkan yaradılmaqla fasilələr verilir".

***Ayşən Vəli***

# Mixail Belyaev: "Azərbaycan-Ermənistan sülh sazişinin imzalanması ehtimalı artdı"

## "Bakı ilə İrəvan arasında sülh sazişinin mətnindən nəqliyyat kommunikasiyalarına dair bəndin çıxarılması sənədin vaxtından əvvəl imzalanması şansını xeyli artırır"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*







***Azərbaycan prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov dünən Ermənistanla sülh sazişi ilə bağlı gözlənilməz detalları açıqlayıb. Bakı və İrəvan sülh sazişinin mətninə ilkin olaraq hər iki tərəfin sənədin imzalanmasının fundamental prinsiplərindən biri kimi irəli sürdüyü nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılması bəndini daxil etməmək barədə razılığa gəliblər. Tanınmış rusiyalı iqtisadçı ekspert və politoloq Mixail Belyaev belə bir razılaşmasının nə qədər vacib olduğunu "Moskva-Baku" portalına müsahibəsində açıqlayıb. Müsahbəni oxucularımıza təqdim edirik.***

***-Bakı ilə İrəvan arasında sülh sazişinin mətnindən Zəngəzur dəhlizi ilə bağlı bəndin çıxarılması nə deməkdir?***

-Hesab edirəm ki, Azərbaycanla Ermənistan arasında nəqliyyat əlaqələrinin açılmasına dair bəndin çıxarılması Bakı ilə İrəvan arasında sülhün imzalanması prosesini sürətləndirəcək.

Xatırlayırıq ki, bu məqam ilk dəfə 2020-ci il noyabrın 9-10-da Rusiya, Azərbaycan və Ermənistan liderlərinin İkinci Qarabağ müharibəsinə son qoyan və Azərbaycan-Ermənistan münasibətlərinin daha da normallaşması üçün başlanğıc olan tarixi üçtərəfli bəyanatında öz əksini tapıb. Moskva onilliklər boyu müharibə edən dövlətlər arasında münasibətlərin normallaşdırılması prosesində iqtisadi faktora ciddi stavka etdi və ümid edirdi ki, nəqliyyat əlaqələrinin açılması ticarət əlaqələrinin qurulmasına, təmasların qurulmasına və iqtisadiyyatın xalqları və dövlətləri bir-birinə daha da yaxınlaşdırmağa çalışacağına ümid edirdi. Lakin sxem işləmədi, baxmayaraq ki, bütün layihənin icra sxemi 4 il ərzində açıqlana bilərdi, lakin tərəflər heç vaxt razılaşa bilmədilər. Daha doğrusu, tərəflər razılaşdı, lakin son anda Ermənistan onları həyata keçirməkdən imtina etdi və prosesi mahiyyətcə dondurdu.

Bu, ikitərəfli münasibətlərin normallaşması prosesində iştirak edən tərəflərin əsas məqsədə çatmaq üçün ikinci dərəcəli şeylərin girovuna çevrilməsi nümunəsidir. Yəni, ikinci dərəcəli məsələ sülh prosesində büdrəməyə çevrilir, nəticədə o, önə çəkilir və ümumi konsepsiya deyil, bu məhəlli məsələ müzakirə olunur; Bu qəbildən olan məsələlər, adətən, müxtəlif incəliklərlə dolu olur, təfərrüatlar, konkretliklər tələb edir və problemlər də bundan başlayır. Belə olan halda heç vaxt sülh müqaviləsi imzalana bilməz. Digər məsələlərlə yanaşı məhz bu problemə görə 4 il ərzində Azərbaycan və Ermənistan sülh danışıqları dalana dirənib. İndi tərəflər bu kiçik məsələni sülh sazişinin mətnindən çıxarmaq qərarına gəldikdə, deyə bilərik ki, 4 illik ballast aradan qaldırılıb və sülh müqaviləsini daha tez imzalamaq şansı var. Əgər onlar sülh sazişinin mətnində nəqliyyat əlaqələrinin bloklanması bəndini tərk etməyi qərara almasaydılar, vəziyyət uzun müddət həll olunmaz qalardı.

Sülh müqaviləsi dövlətlər arasında münasibətlərin qurulması üçün son dərəcə vacib olan həqiqətən əsas, fundamental prinsiplərə əsaslanmalıdır, onlarsız bunun qurulması sadəcə mümkün deyil. Bu, Azərbaycan və Ermənistan tərəfindən suverenliyin və ərazi bütövlüyünün qarşılıqlı tanınması, xalqların mehriban qonşuluq münasibətləri qurmaq üçün siyasi iradəsini və iradəsini qeyd edir. Əsas olan budur. Zəngəzur dəhlizi bütün əhəmiyyətinə baxmayaraq, Azərbaycan, Ermənistan, Rusiya və Türkiyə üçün ikinci dərəcəli əhəmiyyətə malikdir.

Ortaq təməl üzərində sülh sazişinin imzalanması metodoloji cəhətdən düzgündür, o zaman digər sahələrdə həll yollarını hazırlamaq daha asan olar. Əvvəlcə ümumi məsələləri həll etmək və sonra onların əsasında ikinci dərəcəli məsələləri həll etmək lazımdır.

Amma Azərbaycanın Ermənistandan öz Konstitusiyasını dəyişdirməyi, yəni ondan bütün ərazi iddialarını aradan qaldırmağı tələb etdiyi an- bu, birbaşa olaraq sülh müqaviləsinin əsasına- dövlətlər tərəfindən suverenliyin və ərazi bütövlüyünün qarşılıqlı tanınmasına aiddir. Və bu problemdən qaçmaq olmaz. Və bunun üçün əsaslı qərar lazımdır. Axı Ermənistan bunu etməsə, bu o demək olacaq ki, regionda coğrafiya və beynəlxalq hüquqa dair saymazlığı müdafiə edir. Konstitusiya ölkənin ali qanunudur. Ermənistan Konstitusiyasında yer alan iddialar Azərbaycan tərəfini haqlı olaraq narahat edir. Onu dəyişdirmədən, gələcəkdə Ermənistanın istənilən lideri, hətta sülh müqaviləsi imzalansa belə, Konstitusiyaya istinad edə və sülh müqaviləsinin ölkə Konstitusiyasına zidd olduğunu bəyan edə və nəticədə müqaviləni denonsasiya edə biləcək.

***-Zəngəzur dəhlizinin reallaşdırılması məsələsinin Ermənistan-Azərbaycan nizamlanmasının gündəminə gətirildiyi 4 ildə layihə siyasi aspektlər qazanmağa başladı. İrəvan Rusiya FSB sərhədçilərinin dəhlizdə yerləşməsindən məmnun olmadığını bəyan edib. Baxmayaraq ki, əvvəlcə belə bir şərt var idi. Bundan əlavə, Yerevan dəhlizə öz "alternativini"- Avropaya çıxışı olan region ölkələri arasında qarşılıqlı nəqliyyat və iqtisadi əlaqəni nəzərdə tutan "Dünyanın kəsişməsi" layihəsini fəal şəkildə təklif edir. Bütün bunların fonunda Zəngəzur dəhlizinin gələcəkdə perspektivləri necədir?***

-Zəngəzur dəhlizi məsələsi doğrudan da siyasi tərkib almağa başlayıb. Bu həm də Ermənistanın Qərbə üz tutması ilə bağlıdır. Amma etiraf etmək lazımdır ki, Ermənistan üçün sülh müqaviləsi olmadan "Dünyanın qovşağına" çevrilmək artıq oksimoron və utopiya kimi səslənir. Əgər sülh müqaviləsi yoxdursa, onda hansı "Dünyanın kəsişməsindən" danışmaq olar?

Ermənistanın 2020-ci ildə Rusiya FSB sərhədçilərinin dəhliz boyu yerləşdirilməsi ilə bağlı ilkin razılaşmalardan imtina etməsi də Ermənistanın Qərbə getməsi ilə vektorunun dəyişməsinin təzahürüdür.

Məlumdur ki, Ermənistan Azərbaycandan yüklərin sadələşdirilmiş prosedurlarla nəqliyyat marşrutu ilə hərəkət etdiyi layihənin "dəhliz" məntiqindən narahatdır. Amma əminəm ki, istəsə, kompromis tapıla bilərdi.

Ermənistan Rusiya sərhədçilərinin əvəzinə Qərb sərhədçiləri ilə razılaşa bilərmi? Tamamilə mümkündür. Bəs Azərbaycan razılaşacaqmı?

Yalnız bir nəticə var. Ermənistan düşünərkən, siyasəti Zəngəzur dəhlizinə bağlamağa çalışarkən, Azərbaycan artıq İran vasitəsilə layihəyə alternativ qurmağa başlamışdı. Bəli, burada da problemlər var. Bu odur ki, İranda vəziyyət daim kifayət qədər təlatümlüdür. İran ərazisinin təhlükəsizliyi məsələsi isə nəinki gündəmdən çıxarılmır, əksinə getdikcə artır. Digər tərəfdən, keçmiş düşmənindən yüklərin keçməsi üçün Ermənistan ərazisi də ən təhlükəsiz ərazi deyil. Təxribatlar olduqca mümkündür. Amma istənilən halda, tərəflər istəsələr və siyasi iradə olsalar, Azərbaycan və Ermənistan hər zaman bütün məsələlərin həlli üçün mexanizmlər tapa bilərlər.

Zəngəzur dəhlizinin açılması məsələsində Ermənistanın 4 il israr etməkdə və inadkarlıq nümayiş etdirməkdə davam etməsi, məncə, ancaq özünə ziyan vurur. Bəli, Ermənistan ərazisindən keçən Zəngəzur dəhlizi Azərbaycan üçün İran ərazisindən daha arzuolunan olardı, çünki Ermənistandan keçən bu marşrut daha qısadır. Digər tərəfdən, Azərbaycan üçün bu o qədər də önəmli deyil. Ermənistan ərazisindən keçən Zəngəzur dəhlizi Azərbaycan üçün daha çox Ermənistanla iqtisadi əlaqələrin qurulması istiqamətində Ermənistanın özü üçün obyektiv əhəmiyyət kəsb edən bir addımdır. Axı o, onilliklər ərzində təcrid olunmuşdu. Dəhlizin açılması respublikaya yeni iqtisadi imkanlar verəcək. Yeri gəlmişkən, Ermənistanla Türkiyə arasında münasibətlərin normallaşması, sərhədlərin açılması, ticarət-iqtisadi əlaqələrin qurulması, turist axınının perspektivləri Azərbaycan və Ermənistanın tezliklə sülh sazişi imzalamasından asılıdır. Bundan əlavə, Zəngəzur dəhlizinin Türkiyəyədək getməsi nəzərdə tutulur.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
14 avqust
2024-cü il

# Pomidor niyə ucuzlaşmır?



## EKSPERT AYDINLIQ GƏTİRDİ

”Yayda meyvə-tərəvəzin ucuzlaşmasının əsas şərti məhsulun kütləvi şəkildə bazara çıxarılmasıdır”. Bu sözləri SİA-ya açıqlamasında Liberal İqtisadçılar Birliyinin sədri, iqtisadçı-ekspert Akif Nəsirli deyib. Onun sözlərinə görə, məhsul nə qədər ki kütləvi olaraq bazara çıxarıla bilmir, ucuzlaşma baş verməyəcək: ”Görürsünüz, gah yağış yağır, gah külək əsir. Bütün bunlar həm məhsuldarlığı aşağı salır, həm də məhsulun tədarükünü ləngidir. Tutaq ki, yağış yağan vaxtı pomidor yığmaq mümkün deyil. Sahədən pomidor yığıb çıxartmaq olmur. Quraqlıq, isti lazımdır”.

Akif Nəsirli sözlərinə belə davam edib: ”Pomidorun kütləvi yetişməsi üçün 30 dərəcədən yuxarı, 30 dərəcə ətrafında istilik lazımdır. Görürsünüz ki, havalar bir gün isti keçir, iki gün sərinləyir. Yetişmə də azalır və pomidorun hava şəraitinə görə yetişmə dövrü uzanır. Digər tərəfdən də yetişən pomidoru yığmağa yağış imkan vermir. Pomidorun vaxtı keçir, əzilir, xarab olur. Artıq o bazara çıxarılası pomidor olmur. Bu səbəblərdən pomidorun və digər meyvə-tərəvəzin qiyməti ucuzlaşmır. Meyvələrə gəldikdə isə meyvələrin məhsuldarlığı çox aşağıdır. Məhsuldarlıq aşağı olduğuna görə də bu günkü tələbi bazarda təklif üstələyə bilmir. Ona görə də qiymətlər baha olaraq qalır”.

*Ayşən Vəli*

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Acun yenə evlənir...

***Məşhur türkiyəli iş adamı Acun Ilıcalı 25 yaşlı sevgilisi Ayça Çağla Altunkaya ilə evlənir. SİA Türkiyə mətbuatına istinadən xəbər verir ki, cütlük Muğlada toy hazırlıqlarına başlayıb. Bunun üçün hotel bağlatdıran iş adamı qonaqlarını ən yaxşı şəkildə qarşılamaq üçün göstərişlər verib.***



Qeyd edək ki, Acun Ilıcalı bununla da 4-cü dəfə nikah masasına oturur. O, ilk evliliyini Seda Başbuğla edib və Banu adlı qızı olub. Ilıcalının ikinci evliliyi Zeynep Yılmazla olub. Bu evlilikdən Leyla və Yasemin dünyaya gəlib. Ən sonuncu isə 2017-ci ildə Şeyma Subaşı ilə evlənib, bir il sonra boşanıb. Onların Melisa adlı bir qızı var.

# Marsda qayaların içində maye su anbarı tapıldı



Alimlər Marsın ”qırmızı planeti”nin qayalıqlarında maye su anbarının aşkar edildiyini açıqlayıblar. SİA xarici KİV-ə istinadən xəbər verir ki, ABŞ Aerokosmik Agentliyinin (NASA) ”Mars Insight Lander” kəşfiyyat vasitəsinin planetdəki tapıntıları üzərində yeni təhlillər aparan elm adamları Marsın qayalı xarici qabığının içərisində maye su anbarı aşkar ediblər.

Bildirilib ki, 2018-2022-ci illər arasında Marsda elmi kəşfiyyat missiyasında olan ”Insight Lander” 4 il ərzində planetin dərinliklərində baş verən titrəmələri qeyd edərək ”Marsın nəbzini” saxlayıb.

Yeni tapıntılar işığında maye suyun ”seysmik siqnallarına” çatdığı Marsda donmuş su və buxar əlamətlərinin də olduğu xatırladılıb.

## ELAN

Kərimzadə Telman Adıgözəl oğluna verilmiş 2006-cı il tarixli Yeni Azərbaycan Partiyasının 389927 nömrəli üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700